RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 186 (9353) 31 AVQUST 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# İLHAM ƏLİYEVİN siyasi iradəsinin və prinsipiallığının ifadəsi



## Azərbaycan Laçın yolu ilə bağlı bütün avantüraları iflasa uğradır

Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə erməni yalanlarının növbəti mərhələsi başlayıb. Ermənistan rəsmiləri Qarabağda humanitar fəlakətin yarandığını iddia etsələr də, ortaya bununla bağlı bir fakt belə qoya bilməyiblər. İrəvanın bu məsələ ətrafındakı manipulyasiyada məqsədi özünün təcavüzkar siyasətinə yeni siyasi don geyindirmək, bununla sülh danışıqları prosesini ləngitmək və nəticə etibarilə mövqelərini möhkəmləndirməyə nail olmaqdır. Amma BMT Təhlükəsizlik Şurasındakı müzakirələr ermənilərin bu niyyətini puça çıxardı.

Laçın Şəhəri Günü bayram tədbirində çıxışı zamanı Prezident İlham Əliyev bir daha bəyan etdi ki, bizi heç nə yolumuzdan döndərə bilməz: "Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".

→ 4

## Fransa regionda gərginlik yaratmağa çalışır

BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qurduqları tamaşanın arzuladıqları finalla bitmədiyini və seytnot vəziyyətinə düşdüklərini görən "bacılar" oyunun yeni variantlarını düşündülər. İndi də Fransa Erməni Təşkilatları İttifaqının (CCAF) xahişi ilə Paris merinin Fransanın regional icmalarını Qarabağa "humanitar karvan" təşkil etməyə çağırışı ilə toplanmış 10 yük maşını "humanitar yardımın" Marsel, Strasburq merlərinin və digər region rəhbərlərinin müşayiəti ilə sərhədlərimizə cəmləşməsi təxribatdan başqa bir şey deyil.

Erməni məkri, erməni hikkəsi yenə özünü göstərir. "Ac qaldığını", "humanitar böhran" yaşadığını iddia edən ermənilər Azərbaycana bu xoş niyyətinə görə təşəkkür etmək əvəzinə, yolu bağlayıb, küçələrə çıxıb etiraz edirlər. Azərbaycanın göndərdiyi unu qəbul etməyəcəklərini bildirirlər...

→ 4

## Hayastanın son bir ayda dördüncü məğlubiyyəti

### Ölkəmizə qarşı cinayət və təxribat törədənlər heç bir halda cəzasız qalmayacaqlar

Şər və böhtana əsaslanan diplomatik fəaliyyətləri bir ay ərzində 4-cü dəfə iflasa uğradığına görə ermənilər riyakar addımlara birdəfəlik son verməli, Azərbaycanın təkmil sülh modelini qəbul edərək münasibətlərin normallaşmasına çalışmalıdırlar. Bu gün cinayətkarların və təxribatçıların həbsi, beynəlxalq məhkəmələrə edilən müraciətlərin yekdilliklə rədd edilməsi bütün erməni canilərə, təxribat törətmək niyyətində olanlara və bütövlükdə Ermənistana ibrət dərsi olmalıdır.

→ 4

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar yardım göstərməyə hazırdır

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) ehtiyac olarsa, Qarabağda yaşayan erməniəsilli sakinlər üçün əlavə humanitar yük göndərməyə hazırdır. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında AzQAC-ın prezidenti Novruz Aslan deyib.

AzQAC-ın öz missiyasını və xoş niyyətini həyata keçirmək üçün humanitar yük göndərdiyini söyləyən N.Aslan bildirib ki, əgər çətinlik və böhran varsa, ərzaq yardımını qəbul etmirlərsə, çoxlu sual yaranır: "Birinci sual yaranır ki, əgər ehtiyac varsa, humanitar yük nə üçün qəbul edilmir? İkinci sual, əgər biz insanıqsa, dəyərlərimiz varsa və Yaradanımız birdirsə, bu ədavət nə vaxta qədər davam edə bilər? Biz bunları nəzərə almalıyıq.

→ 5

## Yurda qayıdışın təntənəsi

Otuz il ərzində dağıdılıb viran qoyulan, xarabazarlığa çevrilən torpaqlarımız artıq əzəli sahiblərinə qovuşur.

Böyük qayıdış sürətlə davam edir. Otuz il öncə ah-nalə ilə yurdlarından didərgin salınan soydaşlarımız fərəh, qürur, böyük arzu və ümidlərlə həyatlarının yeni səhifəsinə başlayırlar. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə həsrətində olduqları doğma yurdlarına köçürlər, bu yerlərdə həyat yenidən öz axarına qayıdır.

Qarabağ və Şərqi Zəngəzurda insanların rahat və firavan yaşaması üçün bütün lazımi şərait yaradılır. İşğaldan azad edilmiş ərazilərdə Prezidentin birbaşa tapşırığı və nəzarəti ilə aparılan bərpa-quruculuq işləri bu yerlərin tezliklə cənnətməkana çevriləcəyinə əminlik yaradır.

→ 6

## Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş azərbaycanlıların tapılması üçün səylər artırılmalıdır

Dünyanın müxtəlif ölkələrini təmsil edən vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş minlərlə azərbaycanlı barədə təcili tədbirlər görülməsi barədə beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb.

İtkin düşmüş azərbaycanlılarla bağlı məlumatları gizlədən Ermənistan beynəlxalq humanitar hüququ və yuxarıda qeyd olunan Cenevrə konvensiyalarını, insan hüquqlarını, itkin düşmüş şəxslərin və onların ailə üzvlərinin itkinlərin taleyi ilə bağlı məlumat almaq hüquqlarını kobud şəkildə pozur. 30 ildən çoxdur ki, Azərbaycanda itkin düşmüş şəxslərin ailələri Ermənistan tərəfindən bu fundamental hüquqdan məhrum edilib.

→ 5

## Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlılarla bağlı hesabat hazırlanıb

Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva tərəfindən hesabat hazırlanıb. Hesabat 30 Avqust - Beynəlxalq İtkin Düşmüş Şəxslər Günü ilə əlaqədar aidiyyəti beynəlxalq təşkilatlara ünvanlanıb.

Azərbaycan və ingilis dillərində hazırlanmış hesabatda Birinci Qarabağ müharibəsində və sonrakı dövrdə itkin düşmüş şəxslərlə bağlı milli və beynəlxalq qurumlarla əməkdaşlıq nəticəsində əldə edilmiş məlumatlar toplanaraq ümumiləşdirilib.

→ 5

## Afrikada fransız imperializminə qarşı nifrət güclənir

Paris keçmiş müstəmləkələrinin ərazisində tapılan istənilən təbii ehtiyatları almaq üçün birincilik hüququna malikdir. Afrika ölkələri Fransanın maraqlarına və dövlət satınalma şirkətlərinə üstünlük verirlər.

Fransa Afrika silahlı qüvvələrinə təlim keçmək, maraqlarını qorumaq üçün Afrika ölkələrinə qoşun yerləşdirmək və müdaxilə etmək üçün müstəsna hüququnu özündə saxlayır. Bu ölkələr müharibə və ya böhran vəziyyətlərində yalnız Fransa ilə müttəfiq olmağa məcbur edilir.

Son 70 ildə Fransa iqtisadi tədbirlər, gizli əməliyyatlar və onlarla hərbi müdaxilə ilə Afrikadakı maraqlarını qoruyub.

→ 8

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 293 **QƏRAR** Bakı şəhəri, 30 avqust 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 666-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421; 2023, № 2, maddə 315; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 210 nömrəli və 1 avqust tarixli 257 nömrəli qərarları) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 2.2.3-cü yarımbəndinin 4-cü abzasından və 2.2.6-cı yarımbəndinin 6-cı abzasından "rayon (şəhər)" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 294 **QƏRAR** Bakı şəhəri, 30 avqust 2023-cü il

## "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 860-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 aprel tarixli 129 nömrəli və 3 avqust tarixli 261 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 296 **QƏRAR** Bakı şəhəri, 30 avqust 2023-cü il

## "2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması"nın təsdiq edilməsi haqqında

"Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 296 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## 2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına

## İ C A Z Ə

№ _______ _____________ (tarix)

1. Tikinti obyektinin ünvanı (olduqda): ______________________________

2.Tikinti obyektinin istismarına icazə verən orqanın adı: ______________________________
______________________________

3. Tikinti obyektinin sifarişçisi (sahibi):______________________________

4. Sifarişçinin (sahibin) tikinti obyektinin yerləşdiyi torpaq sahəsinə hüququnun növü:

______________________________(mülkiyyət, istifadə və ya icarə)

5. Torpaq sahəsinin döngə nöqtələrinin koordinatları: ______________________________

6. Tikinti obyektinin adı (olduqda), döngə nöqtələrinin koordinatları: ______________________________

7. Tikinti obyektinin istismar təyinatı: ______________________________

8. Tikinti obyektinin əsas texniki göstəriciləri:

| Göstəricilərin adı | Ölçü vahidi | Obyektin faktiki vəziyyətini əks etdirən layihə üzrə |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

Tikinti obyektinin yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlılığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, qaldırıcı qurğuların və digər təhlükə potensiallı qurğu və konstruksiyaların istismara hazırlığı, aidiyyəti qurumlar tərəfindən mühəndis-kommunikasiya təminatı şəbəkəsinin istismara hazırlığına dair aktların təqdim edilməsi baxımından müayinənin nəticəsinə dair istismara hazır olması barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin ___________ tarixli _____________ nömrəli rəyi nəzərə alınaraq istismarına icazə verilsin.

Tikinti obyektinin istismarına icazə verən orqanın rəhbəri:

______________________ (imza)

______________________ (adı, soyadı)

M.Y.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 295 **QƏRAR** Bakı şəhəri, 30 avqust 2023-cü il

## "Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə qeyri-yaşayış binalarından onların istismar təyinatı nəzərə alınmaqla axıdılan çirkab sularının yığılacağı tikili və qurğulara dair tələblər"in təsdiq edilməsi haqqında

"Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə qeyri-yaşayış binalarından onların istismar təyinatı nəzərə alınmaqla axıdılan çirkab sularının yığılacağı tikili və qurğulara dair tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 295 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə qeyri-yaşayış binalarından onların istismar təyinatı nəzərə alınmaqla axıdılan çirkab sularının yığılacağı tikili və qurğulara dair

## T Ə L Ə B L Ə R

1. Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə yerləşən ictimai binalarda (yoluxucu xəstəliklər təyinatlı tibb müəssisələri və bakterioloji laboratoriyalar istisna olmaqla) formalaşan çirkab sularının axıdılması üçün çirkab quyularından istifadə olunmalıdır.

2. Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə yerləşən sənaye (istehsalat) binalarında, yoluxucu xəstəliklər təyinatlı tibb müəssisələrində və bakterioloji laboratoriyalarda formalaşan çirkab suları lokal təmizləyici qurğularda təmizləndikdən sonra çirkab quyularına axıdılmalıdır.

3. Qeyri-yaşayış binasının sifarişçisinin (sahibinin) seçiminə əsasən bu Tələblərin 1-ci və 2-ci hissələrində nəzərdə tutulan qeyri-yaşayış binalarında formalaşan çirkab suları lokal təmizləyici qurğularda təmizləndikdən sonra kənarlaşdırıla bilər. Bu halda çirkab sularının kənarlaşdırılacağı yer (son nöqtəsi) və tərkibindəki çirkləndirici maddələrin qatılıq həddi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (dövlət ekoloji ekspertizasının rəyi) və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (sanitariya-gigiyenik və sanitariya-epidemioloji tələblərinə uyğunluq haqqında arayış) ilə razılaşdırılmalıdır.

4. Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə yerləşən qeyri-yaşayış binalarında formalaşan çirkab sularının axıdılması üçün nəzərdə tutulan çirkab quyularının divarları və dibi sukeçirməz olmalı, habelə həmin quyuların inşası kanalizasiya, xarici şəbəkə və qurğulara dair texniki normativ hüquqi aktın tələblərinə uyğun həyata keçirilməlidir.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri G20 Dinlərarası Forumunun ön konfransında iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ekumenik Patriarxatın və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə yerləşən Təhlükəsiz Cəmiyyətlər üçün Dinlərarası Alyansın birgə təşkilatçılığı ilə İstanbulda keçirilən "Praktiki əməkdaşlıq: Tək dünya, tək ailə, tək gələcəyə doğru" mövzusunda konfransda iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransda iqlim dəyişikliyi, ksenofobiya, terrorizm, nifrət çağırışları kimi müasir dünyanı təhdid edən hallar, qaçqın və məcburi köçkünlərin, eləcə də qadınların və uşaqların hüquqlarının qorunması məsələləri müzakirə olunub.

Xristian-müsəlman akademik dialoqu çərçivəsində təşkil edilən konfransın açılışında Ekumenik Patriarx Varfolomey çıxış etdikdən sonra söz Şeyxülislam Allahşükür Paşazadəyə verilib. QMİ sədri Yer kürəsində qlobal ekoloji və iqtisadi problemlərin, beynəlxalq sabitlik və təhlükəsizliyə ideoloji və praktiki maneələrin artdığı müasir dövrdə siyasi, ictimai və dini liderlərin birgə səylərinin və dinlərarası dialoqun son dərəcə vacib olduğunu vurğulayıb.

Şeyxülislam dünyada beynəlxalq sabitliyə və təhlükəsizliyə böyük təhdid olan ksenofobiya təzahürləri, o cümlədən islamofobiya, xristianofobiya və antisemitizm hallarına toxunaraq qeyd edib ki, Avropanın bəzi ölkələrində dövlət orqanlarının razılığı ilə müsəlmanların müqəddəs kitabı olan "Qurani-Kərim"in təhqir edilməsi və yandırılması faktları dinləri və cəmiyyətləri nifrətə təhrik edən, qarşıdurmanı alovlandıran mənəvi terrordur. QMİ sədri Azərbaycan xalqının Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinə və onun 4 qətnaməsinə əsaslanaraq, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Şeyxülislam bu gün işğal dövründə dağıdılmış milli, dini-mənəvi abidələrimizin bərpa edildiyini, işğaldan azad olunmuş torpaqlarımızda minatəmizləmə əməliyyatlarının davam etdirilərək yenidənqurma işlərinin aparıldığını vurğulayıb.

Qeyd edilib ki, Azərbaycan multikultural ənənələrə malik tolerant ölkədir. Azərbaycanda din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən bütün dini icmalar bərabər hüquqlarla təmin olunur, dövlətin qayğı və himayəsi ilə öz ibadətlərini icra edir. Bu, dövlətimizin milli siyasəti və dini dəyərlərə olan ehtiramının göstəricisidir.

Konfrans çərçivəsində QMİ sədri Ekumenik Patriarx ilə də görüşüb. Tərəflər dinlərarası dialoqun vacibliyini, eləcə də müasir dünyanı təhdid edən problemlərin həllində dini liderlərin artmaqda olan nüfuzunu və rolunu məmnunluqla vurğulayıblar.

# Türk dünyasının Zəfər sevinci

## Azadlıq gününün 101-ci ildönümü qardaş Türkiyə ilə yanaşı, Azərbaycanda da təntənə ilə qeyd edildi

**Dünən qardaş Türkiyədə Zəfər bayramı və Silahlı Qüvvələr Günü qeyd olundu. Qazi Mustafa Kamal Atatürkün komandanlığı ilə 101 il öncə qazanılan möhtəşəm zəfərin sevinci təkcə qardaş ölkədə deyil, bütün türk dünyasında qürurla paylaşıldı.**




Türkiyə xalqının yaddaşına azadlıq günü kimi həkk edilən bu bayram günü Prezident Rəcəb Tayyib Ərdoğan Qurtuluş Savaşının öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün mavzoleyi olduğu Anıtqəbiri ziyarət edib xatirə kitabına ürək sözlərini yazıb. Prezident qeyd edib ki, türk millətinin azadlıq və istiqlal ideyasının ölməz abidəsi kimi təsvir edilən böyük zəfərin 101-ci ildönümünü qeyd etmək qürurvericidir. Bu gün türk xalqı şanlı tarixin dönüş nöqtələrindən biri olan böyük Atatürkü və onun döyüş yoldaşlarını, əziz şəhidləri rəhmətlə yad edir: "Çağdaş sivilizasiyalar səviyyəsinə yüksəlmək məqsədimizin simvoluna çevrilmiş Türkiyə yüzilliyi baxışımızı böyük əzmlə dövlət və millətlə əl-ələ verib həyata keçiririk. Ölkəmizi hədəfləri ilə, millətimizi isə əsrlər boyu arzuları ilə bir araya gətirənə qədər gecə-gündüz çalışmağa davam edəcəyik".

Bu il oktyabr ayında 100 illik yubileyini qeyd edəcək Türkiyə Cümhuriyyəti, həqiqətən də, ötən illər ərzində keçdiyi yüksək inkişaf yolu ilə dünyada böyük nüfuza sahib olan dövətlərdən birinə çevrilib. Son 20 ildə bu ölkənin hərtərəfli tərəqqisi, bütün sahələrdə qazanılan möhtəşəm nailiyyətləri onu deməyə əsas verir ki, böyük öndər Mustafa Kamal Atatürkün qurduğu dövlət etibarlı əllərdədir.

Əgər ölkənin təkcə hərbi sənayesinin son 10 ildə qazandığı nailiyyətlərə nəzər yetirsək görərik ki, Türkiyə bir çox dövlətlərin 100 ildə nail ola bilmədiklərinə qısa zamanda sahiblənib. Dünyanın dəyişən geosiyasi reallıqları fonunda Türkiyə güc sahibi kimi həm yerləşdiyi regionda, həm də beynəlxalq miqyasda tam müstəqil diplomatiya yürütməklə strateji tərəfdaşlarının sayını artırıb. Bu illər ərzində siyasi və iqtisadi baxımdan sürətli inkişaf yolu keçən Türkiyə "Böyük İyirmilik" sırasında mühüm yer tutub və dünyada söz sahibi olan əsas dövlətlərdən birinə çevrilib.

Bu gün Türkiyə Silahlı Qüvvələri hərbi gücü ilə dünyanın ən qüdrətli orduları sırasında yer alır. Qardaş ölkə silahlı birləşmələrinin şəxsi heyətinin sayı baxımından NATO dövlətləri arasında ikinci yerdə qərarlaşıb. Hazırda Türkiyə təkcə hərbi gücünə görə yox, eyni zamanda iqtisadi nailiyyətlərinə, siyasi çəkisinə, qlobal proseslərdə oynadığı rola görə dünyanın güclü dövlətlərindən biridir .

Türkiyənin güclənməsi, uğurları Qərbdəki bəzi dairələri daim narahat edib. Həmin qüvvələr hansısa formada bu ölkəyə təzyiq göstərmək üçün daim əllərindən gələni edirlər. Lakin heç bir halda istəklərinə nail ola bilmirlər. Türkiyədəki vahid xalq-iqtidar birliyi bütün çətinliklərdən üzüağ çıxmağa imkan yaradıb.

Bu vəziyyəti dəyərləndirən Prezident İlham Əliyev qeyd edib ki, 1992-ci illə bugünkü vəziyyəti müqayisə etmək olmaz. Bu gün Türkiyə nəinki bölgədə, dünya miqyasında güc mərkəzidir. Bunu Qərbdə bir çox dairələr qəbul etmək istəmirlər, çünki bu, onları qıcıqlandırır: "Onlar öyrəşiblər, təəssüf ki, keçən əsrdə bəzi hallarda onların sözü Türkiyə siyasətində çox böyük dəyər təşkil edirdi. Ancaq bu gün Türkiyə tam müstəqil siyasət aparır və dünya miqyasında gücə çevrilib. Hansı məsələ bizim bölgəmizdə Türkiyəsiz həll olundu? Baxın, Suriyada, Liviyada, Orta Şərqdə, bizim bölgədə Türkiyə söz sahibidir və bu, reallıqdır. Onunla hesablaşmaq lazımdır".

Bütün bunlara misal olaraq 2016-cı il iyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhdin qarşısının alınmasına diqqət yetirmək yetərlidir. Məhz elə çətin məqamda xalq dövlətinə sahib çıxıb Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında birlik nümayiş etdirdi və bu mütəşəkkillik çevrilişin baş tutmasına imkan vermədi. Xalq-iqtidar birliyinin uğuru ölkənin həm daxildən güclənməsinə, həm də regional və beynəlxalq məsələlərdə daha qətiyyətli mövqe nümayiş etdirməsinə real zəmin yaratdı.

Ümumiyyətlə, Türkiyə Rəcəb Tayyib Ərdoğanın yürütdüyü müstəqil siyasətlə son 20 ildə böyük tarixi yol qət edərək dayanıqlı inkişafını qoruyub saxlaya bilib. Bunun müqabilində isə modern sənayesinin inkişafı ilə dünyanın diqqətini hər zaman özünə yönəldib.

Bu gün daha güclü Türkiyə sürətlə inkişaf edən milli hərbi sənayesi ilə dünyaya meydan oxuyur. Qlobal siyasətdə böyük rol oynayan Türkiyənin razılığı olmadan regionda heç bir siyasi proses həyata keçirilmir. Bütün bunların arxasında Türkiyənin iqtisadi və hərbi qüdrəti dayanır.

Zəfər bayramının 101-ci ildönümü münasibətilə avqustun 30-da qardaş ölkədə təşkil olunan sayca 8-ci "TEXNOFEST" sərgisində nümayiş etdirilən müasir texnikalar bir daha deyilənləri təsdiqləyir. Dünyanın ən böyük aviasiya, kosmos və texnologiya festivalı hesab edilən sərgidə müdafiə şirkətləri, elm ocaqları və araşdırma mərkəzləri öz məhsullarını təqdim edirlər.

İlk dəfə 2018-ci ildə keçirilən "TEXNOFEST" bu il Türkiyədə 7-ci, ümumilikdə isə biri Azərbaycanda olmaqla 8-ci dəfə keçirilir. Sərgidə Azərbaycan Ordusunun "Su-25" qırıcıları xüsusi diqqət çəkib. Su-25 ML "Laçın" adlandırılan təyyarə Türkiyədə modernləşdirilib.

Beynəlxalq arenada mövqelərini əzmlə möhkəmləndirən, yeni-yeni sosial-iqtisadi layihələr əsasında bütün sahələr üzrə sürətlə inkişaf edən Türkiyə müdafiə qüdrətini və iqtisadi yüksəlişini dünyanın aparıcı dövlətləri ilə eyni səviyyəyə çatdırmaqda qərarlıdır. Siyasətinin təməlində milli təhlükəsizliyin qorunması, ölkənin müdafiə qüdrətinin yüksəlişi, xalqın rifahının təmin edilməsi və s. Türkiyənin dövlət siyasətinin təməl prinsipləridir.

Ümumiyyətlə, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də ölkəmizə kompleks yardımını əsirgəməyən qardaş Türkiyə Milli Ordumuzun qurulmasında və inkişafında böyük səylər göstərib. Məhz bu əməkdaşlığın nəticəsidir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu Vətən müharibəsində parlaq qələbə qazanaraq 30 illik işğala son qoyub. Şanlı Azərbaycan Ordusu qəhrəmanlıq nümunəsi göstərərək 44 günə Azərbaycanın ərazi bütövlüyünü təmin edib.

İkinci Qarabağ müharibəsində Türkiyə istehsallı silah və texnika Ermənistan ordusunun məhv edilməsində xüsusi rol oynayıb. Bu müharibədən sonra Türkiyənin PUA satışlarında ciddi artım qeydə alınıb. Məlumata görə, bir çox Afrika və Asiya ölkələri Türkiyədən "Bayraktar TB2" PUA-sını sifariş edib. Ukraynadakı müharibə isə bu sistemlərin nə qədər önəmli olduğunu bir daha göstərib.

Avqustun 30-da Bakıda da qardaş ölkənin Zəfər bayramı təntənəli şəkildə qeyd edilib. Bu münasibətlə təşkil olunan mərasimdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı deyib: "105 il bundan əvvəl azərbaycanlı qardaşlarımızla çiyin-çiyinə Azərbaycanın azadlığı uğrunda mübarizə aparan türk əsgərlərinin bir çoxu Şəhidlər xiyabanında Azərbaycan şəhidləri ilə bir məkanı paylaşırlar. Azərbaycanın hər yerində Türkiyə şəhidlərinin xatirəsinə böyük ehtiram duyulduğunun şahidi oluruq. Şəhidlərimiz 105 il bundan əvvəl "bir millət, iki dövlət" ifadəsinin sarsılmazlığını sübuta yetirdilər. Biz bu qardaşlığımızın sarsılmazlığını inamla davam etdirəcəyik".

Cahit Bağçı 101 illiyi qeyd olunan bu böyük qələbənin türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsi olduğunu vurğulayıb.

Heydər Əliyev adına Hərbi İnstitutda təşkil olunan tədbirdə isə qeyd edilib ki, Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılan möhtəşəm tarixi zəfər türk xalqının hərb tarixinə yazılan ən şərəfli səhifələrdən biridir. Türk ordusu tarixboyu düşmənlərinə qarşı qətiyyətlə savaşaraq igidlik, qəhrəmanlıq nümayiş etdirib, döyüş meydanında hər zaman hünər göstərərək şanlı qələbələrə imza atıb.

Bu gün Azərbaycan-Türkiyə qardaşlığının dünyada tayı-bərabəri və bənzəri yoxdur. Bu sarsılmaz bağlılıq getdikcə daha da möhkəmlənməkdədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə Şəhidlər xiyabanı ziyarət olunub

Avqustun 30-da Türkiyədə Zəfər bayramı və Silahlı Qüvvələr Günü qeyd olunur. Qazi Mustafa Kamal Atatürkün komandanlığı ilə 101 il əvvəl Türkiyə xalqı və ordusu bu tarixi yaddaşlara azadlıq günü kimi həkk ediblər.







AZƏRTAC xəbər verir ki, bu münasibətlə Türkiyənin Azərbaycandakı səfirliyinin əməkdaşları, Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşeliyi, türkiyəli iş adamları avqustun 30-da Şəhidlər xiyabanına gələrək 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə canından keçmiş türk şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə əklil qoyublar.

Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin ifasında Azərbaycan və Türkiyənin Dövlət himnləri səslənib.

Əvvəlcə Zəfər bayramının tarixi barədə məlumat verilib. Bildirilib ki, Türkiyə xalqı və Türkiyə Silahlı Qüvvələri qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 101 il bundan əvvəl, 1922-ci il avqustun 30-da tarixi zəfər qazanaraq bu tarixi yaddaşlara azadlıq günü kimi həkk ediblər.

Sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı bu böyük qələbənin türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsi olduğunu vurğulayıb.

Şəhidliyin xatirə dəftərini imzalayan səfir bildirib ki, Türkiyə xalqı bu qələbəni əzmkarlıq və dəyanətlə qazanıb.

Cahit Bağçı deyib: "105 il bundan əvvəl azərbaycanlı qardaşlarımızla çiyin-çiyinə Azərbaycanın azadlığı uğrunda mübarizə aparan türk əsgərlərinin bir çoxu Şəhidlər xiyabanında Azərbaycan şəhidləri ilə bir məkanı paylaşırlar. Azərbaycanın hər yerində Türkiyə şəhidlərinin xatirəsinə böyük ehtiram duyulduğunun şahidi oluruq.

Şəhidlərimiz 105 il bundan əvvəl "bir millət, iki dövlət" ifadəsinin sarsılmazlığını sübuta yetirdilər. Biz bu qardaşlığımızın sarsılmazlığını inamla davam etdirəcəyik".

Sonra Azərbaycanın azadlığı uğrunda canlarını fəda etmiş türk əsgərlərinin adları və soyadları həkk olunmuş Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzülüb.

Mərasim iştirakçıları həmçinin Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, şəhidlərin məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Azərbaycanın müdafiə naziri Türkiyənin Quru Qoşunları məktəbinin buraxılış mərasimində iştirak edib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyədə işgüzar səfəri davam edir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində general-polkovnik Z.Həsənov növbəti buraxılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasının Quru Qoşunları Ali Hərbi Məktəbinə gəlib.

Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülərin, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun və digər rəsmilərin də iştirak etdiyi tədbirdən əvvəl məktəbin "Şəhidlər qapısı"nda azərbaycanlı və türkiyəli şəhid məzunlarının adları əks olunan lövhələrin qarşısında xatirə fotosu çəkdirilib.

Təntənəli mərasimdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək məzunları buraxılış münasibətilə təbrik edib.

# Bakıda Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü qeyd edilib

**Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib.**









AZƏRTAC xəbər ki, tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Rəsmi qəbulda dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İstiqlal marşı səsləndirildikdən sonra Türkiyənin ölkəmizdəki səfiri Cahid Bağçı Prezident Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Səfir türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazandığını qeyd edərək ölkəsinin yeni 100 ilə inamla qədəm qoyduğunu bildirib.

Türkiyənin son illər inkişaf edərək dünyada böyük güc mərkəzinə və söz sahibinə çevrildiyini vurğulayan diplomat ölkəsinin mühüm beynəlxalq məsələlərin həllində fəal iştirak etdiyini qeyd edib.

Cahit Bağçı Türkiyənin getdikcə gücləndiyini, müdafiə sənayesi sahəsində inkişafının 80 faizə çatdığını və dünyada böyük söz sahibinə çevrildiyini diqqətə çatdırıb. "İşğaldan azad edilən torpaqlara Böyük qayıdışın baş verdiyi bir zamanda zəfərimizin 101-ci ildönümünü qeyd etmək qürur verir. Türkiyə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, sülh sazişinin imzalanmasını dəstəkləyir. Türkiyə və Azərbaycan hər zaman sülhün tərəfdarıdır", - deyə türkiyəli diplomat vurğulayıb.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev qardaş türk xalqını və Türkiyə Silahlı Qüvvələrinin bütün şəxsi heyətini Zəfər bayramı münasibətilə təbrik edərək bu möhtəşəm qələbənin Türkiyənin şanlı tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildirib.

Azərbaycan ilə Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu vurğulayan general-polkovnik əlaqələrin bu səviyyəyə çatmasında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəsna rolunu qeyd edib.

Ölkələrimiz arasındakı tarixi, dini və mədəni əlaqələrin hərbi sahədə əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar yaratdığını diqqətə çatdıran Kərim Vəliyev bildirib ki, iki ölkə orduları arasında Baş qərargahlar səviyyəsində Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr və Milli Müdafiə Universitetinin iştirakı ilə keçirilən təlim, döyüş hazırlığı, hərbi təhsil və digər tədbirlərin sayının artırılması nəzərdə tutulub.

Türkiyənin Zəfər bayramının qardaş ölkənin zəngin tarixinin ən şərəfli səhifələrindən biri olduğunu qeyd edən Kərim Vəliyev ölkələrimiz arasında dostluq əlaqələrinin daha da genişlənməsinin əhəmiyyətini qeyd edib.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində zəruri addımlar atıldığını diqqətə çatdıran general-polkovnik deyib: "Azərbaycan və Türkiyə orduları arasında əməkdaşlıq birliyimizi möhkəmləndirir, bölgədə sabitliyin qorunmasına və xalqlarımızın rifahının daha da yüksəldilməsinə xidmət edir. Əminəm ki, iki qardaş ölkənin orduları arasında əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcək".

Sonda Zəfər bayramı münasibətilə Türkiyənin milli müdafiə naziri Yaşar Gülerin təbrik məktubu oxunub və film nümayiş olunub.

# İLHAM ƏLİYEVİN siyasi iradəsinin və prinsipiallığının ifadəsi

## Azərbaycan Laçın yolu ilə bağlı bütün avantüraları iflasa uğradır

**Avqustun 29-da Azərbaycan və Fransa prezidentləri arasında telefon danışığında regiondakı vəziyyət müzakirə olunub. Fransa prezidentinin təşəbbüsü ilə baş tutan danışıq əsnasında Prezident İlham Əliyev E.Makronun diqqətinə bir daha çatdırıb ki, Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər.**



### İrəvanın niyyəti puça çıxdı

Ötən 3 ilə yaxın dövrün mənzərəsi göstərir ki, Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar müstəvisində də özünün milli maraqlarını qətiyyətlə təmin etməkdədir. Ermənistanla sərhəddə Laçın rayonu ərazisində bu ilin aprel ayında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması bunu bir daha təsdiqləyir. Bu sərhəd məntəqəsinin yaradılması ilə Azərbaycan öz suverenliyinin və təhlükəsizliyinin təmini istiqamətində növbəti tarixi qələbəyə imza atdı.

Azərbaycanın suveren hüquqları müstəvisində legitim addım atmasını Avropa Məhkəməsi də öz qərarı ilə təsdiq edib. Bununla ermənilərin hərbi cinayətlərinin, Azərbaycanın Qarabağ bölgəsinə silah-sursat daşımasının, ərazilərimizin minalanmasının qarşısı alınıb. Əlbəttə ki, bu, azərbaycanlıların soyqırımında iştirak etmiş erməni hərbi canilərin canına qorxu salıb. Çünki onların hər birini hərbi cani Vaqif Xaçaturyanın, bayrağımızı təhqir etdiklərinə görə saxlanılan erməni futbolçuların aqibəti gözləyir.

Ona görə də Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə erməni yalanlarının növbəti mərhələsi başlayıb. Ermənistan rəsmiləri Qarabağda humanitar fəlakətin yarandığını iddia etsələr də, ortaya bununla bağlı bir fakt belə qoya bilməyiblər. İrəvanın bu məsələ ətrafındakı manipulyasiyada məqsədi özünün təcavüzkar siyasətinə yeni siyasi don geyindirmək, bununla sülh danışıqları prosesini ləngitmək və nəticə etibarilə mövqelərini möhkəmləndirməyə nail olmaqdır. Amma BMT Təhlükəsizlik Şurasındakı müzakirələr ermənilərin bu niyyətini puça çıxardı.

### Fransa hakimiyyət orqanlarının riyakarlığı bir daha üzə çıxdı

Başda Fransa prezidenti E.Makron olmaqla bu ölkənin siyasi dairələri aylardır ki, Azərbaycana qarşı siyasi manipulyasiyalarla məşğuldurlar. Əslində, bu məsələ ətrafındakı qərəzli yanaşmalar Fransa hakimiyyət orqanlarının riyakarlığını bir daha üzə çıxardı. Erməni diasporunun əlində alətə çevrilmiş bu ölkənin siyasi dairələri Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsinin ləğvinə nail olacaqlarını düşünsələr də, son aylarda tam dərk etdilər ki, Azərbaycana təsir və təzyiq etmək qeyri-mümkündür.

Avqustun 26-da Laçın Şəhəri Günü bayram tədbirində çıxışı zamanı Prezident İlham Əliyev bir daha bəyan etdi ki, bizi heç nə yolumuzdan döndərə bilməz: "Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".

Fransa öz hərəkətləri ilə təxribatlara yol verərək sülh prosesinə xələl gətirir. Bu ölkənin rəsmilərinin qərəzli açıqlamaları ilə yanaşı, Laçın yolu ilə Qarabağın erməni sakinlərinə "humanitar yük" çatdırmaq istəməsi də təxribatçılıqdan və pozuculuqdan başqa bir şey deyil. Qoy nə qədər istəyirlər, gəlib sərhəddə toplaşsınlar. Yenə də gözləri yol çəkməkdən başqa çarə tapmayacaqlar. Bundan əvvəl Ermənistan tərəfi Qarabağa humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər göndərməyə çalışıb ki, bunda da məqsəd Prezident İlham Əliyevin qeyd etdiyi kimi, siyasi möhtəkirlikdir.

### Ermənistanın və "böyük bacısı"nın hay-həşirləri faydasızdır

Əslində, E.Makron başda olmaqla Fransanın bütün siyasi dairələri əsl həqiqətlərin nədən ibarət olduğunu yaxşı bilirlər. Onu da yaxşı bilirlər ki, Qarabağ bölgəsi Azərbaycanın suveren ərazisidir, nə Xankəndidə, nə də Qarabağın ermənilər yaşayan digər yaşayış məntəqələrində humanitar fəlakət baş vermir.

Laçın yolundan və sərhəd nəzarət-buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün "Ağdam-Xankəndi" və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Sadəcə, sülhə qarşı çıxan Fransanın bu məsələdən öz məkrli niyyəti üçün manipulyasiya məqsədilə istifadə etdiyi hər kəsə gün kimi aydındır.

Avqustun 29-da Fransa Prezidenti ilə telefon danışığı zamanı Prezident İlham Əliyev bir daha Azərbaycanın mövqeyini onun diqqətinə çatdırıb. Azərbaycanın mövqeyi isə haqlı və qətiyyətlidir. Ona görə də həm Ermənistanın, həm də onun "böyük bacısı"nın Laçın yolu ilə bağlı qlobal hay-həşirləri faydasızdır. Onların hansısa dövlətləri və şəxsləri bu prosesə qoşmaları da əbəsdir. Çünki Azərbaycanı öz milli maraqlarından çəkindirmək mümkün deyil. Həm də erməni yalanları artıq ayaq tutub yeriyə bilmir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Hayastanın son bir ayda dördüncü məğlubiyyəti

## Ölkəmizə qarşı cinayət və təxribat törədənlər heç bir halda cəzasız qalmayacaqlar

**İgidlərimizin otuz ildən sonra tarixi ədaləti gücləri və şücaətləri hesabına bərpa etmələri bizi zamanın sınağından keçmiş həqiqətlərə bir daha inandırdı. Qarabağı və Şərqi Zəngəzuru cinayətkar yuvasına çevirənlərin, xalqımıza qarşı amansızlıq edənlərin və təxribat törədənlərin ədalət qarşısında cavab verəcəkləri, heç bir cinayətin cəzasız qalmayacağı reallığı təsdiqini tapdı.**

Əli azərbaycanlıların qanına bulaşmış, insanları doğma yurdlarından didərgin salmış canilərin, üçrəngli bayrağımızı təhqir edənlərin bu gün cəza çəkməsi, bütün gücləri ni Azərbaycanı nüfuzdan salmağa səfərbər edənlərin əsassız tələblərinin beynəlxalq məhkəmələr tərəfindən rədd edilməsi xəbərləri bizə Prezident, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsindəki zəfər müjdələrinin sevincini sanki yenidən bəxş edir. Zaman keçdikcə şahidi oluruq ki, ölkəmizə qarşı fərqli vaxtlarda, müxtəlif formalı təxribat törədənlər cəzalandırılır, tökülən qanlar yerdə qalmır. Son bir ayda Avropa Məhkəməsi tərəfindən Ermənistanın müraciətlərinin ard-arda rədd edilməsi də ədalətin bərpasıdır. Bu həm də yenilməz qətiyyətimizin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə edilən hörmətsizliklərə, ayrı-ayrı dövlətlərin ölkəmizin daxili işlərinə qarışmaq cəhdlərinə qarşı sərt münasibətimizin bariz təzahürüdür.

### Qətiyyətin gücü

Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinə müraciətlərinin yekdilliklə rədd edilməsi diplomatiyamızın növbəti uğurlarındandır. Rəsmi Bakı təqdim etdiyi fakt və sübutlarla əsl həqiqəti dünyaya çatdırıb və nəticədə son bir ayda artıq 4-cü dəfədir ki, BƏM-də ədalətli qərarların qəbul edilməsinə nail olub.



Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması, eləcə də insanlıq əleyhinə cinayətlər törətməkdə təqsirləndirilən Vaqif Xaçaturyan və Azərbaycan bayrağını təhqir edən erməniəsilli idmançılarla bağlı iddialarının əsassız olduğuna dair qərarlar çıxararaq bu ölkənin müraciətlərini rədd edib.

Beynəlxalq məhkəmələrin bəzən "böyük güclərin" manipulyasiyasına uyaraq ədalətsiz qərarlar qəbul etdiyini nəzərə alsaq, bir ay ərzində ard-arda olaraq lehimizə 4 qərarın verilməsi ortaya qoyduğumuz siyasi iradə və prinsipiallığın nəticəsidir. Görünən odur ki, şanlı zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra beynəlxalq platformalarda söz sahibinə çevrilən rəsmi Bakının diktə etdiyi siyasi gündəlik beynəlxalq məhkəmələrin qərəzini belə üstələməyi bacarıb. Bu mənada, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarını dövlətimizin ərazi bütövlüyünün, suverenlik və sərhədlərinin toxunulmazlığının qəbul edilməsi kimi də qiymətləndirmək olar.

Ermənilərin beynəlxalq məhkəmələrə müraciətləri tamamilə əsassızdır. Onların müharibə canilərini gizlətməyə, bayrağımızı təhqir edən idmançıları müdafiə etməyə çalışmaları, "humanitar böhran" şousu yaratmaları heç bir məntiqə sığmır. Çünki hayların tarixboyu azərbaycanlılara qarşı kütləvi qətllər törətmələri, talanlar və etnik təmizləmələr həyata keçirmələri, habelə Azərbaycanın alternativ Ağdam-Xankəndi yolunu təklif edərək dinc ermənilərə problem yaratmaması heç kimə sirr deyil. Ermənilərin uzun illərdir ki, özlərini dünyaya zəngin və qədim tarixə malik, guya azərbaycanlılar tərəfindən zülm-zillətə məruz qoyulmuş millət kimi təqdim etmək cəhdləri artıq nəticəsiz qalır. Çünki dünya birliyi həqiqəti bilir.

Odur ki, Ermənistan və havadarları regionda davamlı sülh və sabitliyin əldə olunmasına əngəl törətmək üçün nə qədər çalışsalar da, nəticə vermir. Ümumiyyətlə, beynəlxalq məhkəmənin ölkəmizin haqq işinə düzgün qiymət verəcəyi təqdirdə, Ermənistanın saxta iddialarının fiaskoya uğrayacağı gözlənilən idi.

### Tarixi ədalət gec və ya tez yerini tapır

Şər və böhtana əsaslanan diplomatik fəaliyyətləri bir ay ərzində 4-cü dəfə iflasa uğradığına görə ermənilər riyakar addımlara birdəfəlik son verməli, Azərbaycanın təkmil sülh modelini qəbul edərək münasibətlərin normallaşmasına çalışmalıdırlar. Bu gün cinayətkarların və təxribatçıların həbsi, beynəlxalq məhkəmələrə edilən müraciətlərin yekdilliklə rədd edilməsi bütün erməni canilərə, təxribat törətmək niyyətində olanlara və bütövlükdə Ermənistana ibrət dərsi olmalıdır.

Prezident İlham Əliyev dünyaya sübut edir ki, kimliyindən asılı olmayaraq cinayətə yol verən hər kəs cəzalandırılır. Tarixi ədalət gec və ya tez yerini tapdığına görə zülmkarlıq və rəzalət yolunu seçmək heç bir fayda vermir. Hökm haqqın və ədalətin əlindədir. Bu gün Azərbaycanın Vətən müharibəsindəki şanlı zəfərdən sonra regionda, eləcə də dünyada artan nüfuzu, dövlətimizin diktəedən tərəf olması bunun bariz nümunəsidir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fransa regionda gərginlik yaratmağa çalışır

Bağışlamaq böyüklükdəndir. Azərbaycan böyüklük edir... Yıxdığını kəsməmək, aman diləyənə imkan vermək türkün adətidir. 44 günlük müharibədə yenilən, aciz duruma düşüb aman diləyən düşmənə mərhəmət göstərdik. Etdiyi vəhşiliklərə, tökdüyü qanlara rəğmən, qalıb torpaqlarımızda yaşamalarına imkan verdik... Humanistlik göstərib sülh təklif etdik. Hərbi, iqtisadi, siyasi bataqlıq girdabında çabalayan Ermənistan rəhbərlərinə yol göstərdik...



Yolunu azmış məkrli düşmən yenə hiyləyə, fitnəyə əl atıb. Sülh danışıqları altında vaxt uzadıb revanş götürmək niyyətinə düşüb. Humanitar məqsədlər üçün verdiyimiz yol ilə ərazilərimizə silah daşımaq istəyir. Buna nail olmayanda Azərbaycanı provakasiyaya çəkib əleyhimizə təbliğat aparmaq istəyirlər. Özlərini "yazıq", "köməksiz" göstərmək üçün fürsət axtarırlar. Ağır döyüş texnikalarını sərhədlərimizə cəmləyib silahlı təxribat törətməyə çalışırlar. Zəngəzur nəqliyyat dəhlizini açmayıb özlərinə "status" tələb edirlər... Fransanın, digər dövlətlərin əlində oyuncaq olanlar bizimlə oyun oynamaq niyyətinə düşürlər...

Cavabımız çox qısa və dəqiqdir. Oyun bitib! Amma yenə də haylar və havadarları dədə-babalarından qalan köhnə metodlarını işə salıblar. "Blokada"da olduqlarını, "humanitar böhran" yaşadıqlarını, "genosidə" məruz qaldıqlarını dünyaya car çəkib ölkəmizin əleyhinə təbliğata başlayıblar. Gündüzlər kameraların qarşısına keçib özlərini "yazıq" göstərir, gecələr "fransız valsı" oynayırlar...

Azərbaycan müstəqil dövlətdir. Ərazilərinə kimi haradan buraxacağını, sərhədlərində harada nəzarət-buraxılış məntəqəsi yaradacağını özü müəyyən edir. Bu mövzuda hər hansı bir dövlətin işimizə qarışmağa nə haqqı, nə də hüququ var. Əks tədqirdə bu, beynəlxalq hüququn pozulması, qanunlara hörmətsizlik deməkdir. Beynəlxalq aləmdə Azərbaycan ərazisi kimi təsdiq olunmuş və Ermənistanın da Azərbaycan ərazisi kimi tanıdığı Laçın rayonunda səhrəd nəzarət-buraxılış məntəqəsini yaratmaq ölkəmizin hüququdur. Bununla Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ölkəmizin həyata keçirdiyi bu tədbirlə ərazilərimizə gələn silahlı quldurların qarşısının alınmasına, Ermənistanın ərazilərimizə öldürücü silahların daşımasına, bir sözlə, qanunsuz əməllərinə, özbaşınalığına son qoyuldu. Bu, ölkəmizin milli təhlükəsizlik məsələsidir. Azərbaycanın bu haqq səsi Cənubi Qafqaz siyasətində uzun illər "vasitəçilik" missiyası yerinə yetirən, ermənilərə hər cür hərbi dəstək verib problemin həllinə mane olan, 44 günlük Vətən müharibəsi zamanı çoxillik fəaliyyəti iflasa uğrayıb ofsayta düşən Fransanın, onun erməni lobbisinin sözçüsünə çevrilmiş prezidenti Emmanuel Makronun xoşuna gəlmədi. "Bacılar" cütləşib əleyhimizə informasiya cəbhəsi açdılar. Təbii ki, olan əllərində alət etdikləri və illərdir ələbaxan duruma saldıqları Qarabağda yaşayan erməni əhalisinə oldu.

### Fransızların sərhəddə sərgüzəştləri

BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qurduqları tamaşanın arzuladıqları finalla bitmədiyini və seytnot vəziyyətinə düşdüklərini görən "bacılar" oyunun yeni variantlarını düşündülər. İndi də Fransa Erməni Təşkilatları İttifaqının (CCAF) xahişi ilə Paris merinin Fransanın regional icmalarını Qarabağa "humanitar karvan" təşkil etməyə çağırışı ilə toplanmış 10 yük maşını "humanitar yardımın" Marsel, Strasburq merlərinin və digər region rəhbərlərinin müşayiəti ilə sərhədlərimizə cəmləşməsi təxribatdan başqa bir şey deyil. Məgər bunlar görmürlər ki, xeyli vaxtdır 44 günlük müharibə zamanı "humanitar yardım" aparmaq adı ilə Ermənistana silah keçirmək istəyən "Spayk"in 21 avtomobili Ermənistanın Gorus rayonu ərazisində, Azərbaycanla sərhəddə dayanıb gözləyir. Bu gün bu avtomobil karvanına Fransadan gəlmiş 10 yük avtomobili də əlavə olunsa, güya nə dəyişəcək ki? Axı Azərbaycan qətiyyətli mövqeyini göstərib.

### Azərbaycan xoş məram nümayiş etdirir

Qarabağda yaşayan erməni əhalinin heç bir humanitar böhran keçirmədiyini, əslində, orada yaşayan əhalinin separatçıların, Ermənistanın hakimiyyət dairələrinin, eyni zamanda regionda marağı olan bəzi dövlətlərin əlində alətə çevrildiyini, beynəlxalq güclərin Cənubi Qafqaz uğrunda mübarizə apardıqlarını və bu mübarizədə "məzlum ermənilər"dən istifadə edildiyini bilməyən az siyasətçi tapılar.

Azərbaycan irihəcmli yükdaşımalar üçün Ağdam-Xankəndi yolunu təklif edib. Bu yol ölkəmizin təhlükəsizliyi üçün seçilmiş ən düzgün variantdır. Gələn yüklərin beynəlxalq gömrük qanunları ilə diaqnostika olunduqdan sonra ünvanına çatdırılmasına icazə veriləcək. Ermənilər və himayədarları isə yüklərin Laçın yolu ilə daşınmasında israr edirlər. Sual olunur: ac adama çörək lazımdırsa, onun hansı marşrutla gəlməsinin fərqi nədir? Xəstəyə dərman lazımdırsa, bu dərmanın Laçından və ya Ağdamdan keçərək Xankəndiyə çatdırılması xəstənin səhhətinə fərqli təsir etmirsə, nədən inad edilir? Bu məsələ ilə bağlı torpağın sahibinin yox, kənar qüvvələrin fikri niyə əsas götürülməlidir?

Qarabağ separatçıları və orada yaşayan ermənilər "real" humanitar böhran görüntüsü yaratmaq üçün indi də "çörək şousu" yaratmağa hazırlaşırlar. Artıq "çörək şousu"nun ssenarisi hazırdır. Tezliklə tamaşa göstərilməyə başlanılacaq. Separatçı rejimin rəhbərləri əhalinin əlində olan taxılı yığmaq üçün sakinlərə xəbərdarlıq da ediblər. Yəqin ki, yaxın günlərdə Fransa televiziyaları, eləcə də sosial şəbəkələrin erməni seqmentləri "çörəksizlikdən, aclıqdan üzülmüş" ermənilərin görünütlərini ekranlarda tirajlayacaqlar. "Yazıq", "məzlum" görsənmək, "başına gələn faciələr"dən gəlir götürmək, qazanmaq, ermənin xislətindədir. Bunu bildikləri, utanmadan oynamağı bacardıqları üçün də bu üsullardan istifadə edirlər.

### Azərbaycan Qarabağda yaşayan erməni əhaliyə 40 ton un göndərib

Azərbaycan hərbi cinayətlərdə əli olmayan erməni əhalisinin Azərbaycana reinteqrasiyasını təklif edib. Qarabağda heç bir humanitar böhran yaşanmadığı və hətta humanitar böhranın əlamətləri olmadığı halda belə, Azərbaycan orada yaşayan erməni əhaliyə sovqat olaraq 40 ton un göndərib. Erməni əhalinin Laçın yolu ilə sərbəst, maneəsiz çıxışına və dönüşünə şərait yaradıb.

Amma erməni məkri, erməni hikkəsi yenə özünü göstərir. "Ac qaldığını", "humanitar böhran" yaşadığını iddia edən ermənilər Azərbaycana bu xoş niyyətinə görə təşəkkür etmək əvəzinə, yolu bağlayıb, küçələrə çıxıb etiraz edirlər. Azərbaycanın göndərdiyi unu qəbul etməyəcəklərini bildirirlər...

Ermənilərin təzyiq altında "dirəniş" göstərməsinə qəti şübhə yoxdur. Anlayırıq ki, hətta içərilərində kasıb yaşayan, yardıma ehtiyacı olan və yersiz siyasi dartışmalardan bezən ermənilər də az deyil. Hətta separatçıların bəzi "funksionerləri" Azərbaycanın reinterqasiya təkliflərini normal qarşılayır, Ağdamın Əsgərana yaxın ərazisində Azərbaycanın böyük ərzaq anbarlarının yaradılmasını təklif edirlər. Ağdam yolunda humanitar mərkəz yaradılacağı tədqirdə, ermənilərin ərzaq üçün bura müraciət edəcəkləri çox inandırıcı görünür. Biz yaxın keçmişdə Laçın-Xankəndi yolunda aksiya keçirilən zaman erməni icmasının nümayəndəsi Toros Qazaryanın kömək üçün azərbaycanlılara müraciət etməsinə də şahidlik etmişik.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş azərbaycanlıların tapılması üçün səylər artırılmalıdır

Dünyanın müxtəlif ölkələrini təmsil edən vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş minlərlə azərbaycanlı barədə təcili tədbirlər görülməsi barədə beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir:

"Biz, aşağıda imzası olan vətəndaş cəmiyyəti təşkilatları birgə bəyanat verərək Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş minlərlə azərbaycanlı barədə təcili tədbirlər görülməsi üçün beynəlxalq ictimaiyyətə müraciət edirik.

Yaranmış vəziyyət itkin düşmüş şəxslər probleminin həlli və onların ailələrinə yardımın göstərilməsi üçün beynəlxalq səylərə təcili ehtiyac olduğunu nümayiş etdirir.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsi zamanı ümumilikdə 3890 azərbaycanlı rəsmi olaraq itkin kimi qeydə alınıb. Onların 3171-i hərbi qulluqçu, 719-u isə mülki şəxslər olub. Təəssüflər olsun ki, mülki şəxslərdən 71-i uşaq, 267-si qadın, 326-sı qoca olub.

İçərisində 29 nəfər uşaq, 98 nəfər qadın və 112 nəfər ahıl olmaqla, itkinlərin 872 nəfəri ya girov götürülüb, ya da xəstə və ahıl olduqları üçün ərazini tərk edə bilməyiblər. Ürək ağrıdan da odur ki, bəzi hallarda bütün ailələr, nəsillər qohumları ilə birlikdə yoxa çıxıb.

Bundan başqa, İkinci Qarabağ müharibəsi zamanı 6 nəfər azərbaycanlı itkin düşüb, onların harada olması və taleyi ilə bağlı bu günə qədər heç bir məlumat yoxdur.

Beynəlxalq humanitar hüquq (BHH) silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsinə diqqət çəkir və 1949-cu il qəbul edilmiş Cenevrə konvensiyaları belə vəziyyət üçün xüsusi tələblər və müdafiə vasitələri müəyyən edir. Beynəlxalq humanitar hüququn tələblərinə görə, münaqişə tərəfləri itkin düşmüş şəxsləri axtarmağa və onların sayını müəyyənləşdirməyə borcludurlar. Bura həm münaqişə zamanı əlaqə kəsilmiş döyüşçülər, həm də ailələrindən ayrılmış mülki şəxslər daxildir. Tərəflərdən tələb olunur ki, itkinlər haqqında məlumat toplasınlar və təqdim etsinlər, əsir və girovlarla ailələri arasında ünsiyyəti asanlaşdırsınlar. Onlar həmçinin ölən şəxslərin şəxsiyyətinin müəyyən edilməsini təşkil etməli və onların ailələrinə məlumat verməlidirlər. İtkin düşmüş şəxslərin ailələri öz yaxınlarının taleyini və harada olduğunu bilmək hüququna malikdirlər.

Ermənistan itkin düşmüş şəxslərin şəxsiyyətini müəyyənləşdirməkdən və ailələrinə məlumat verməkdən yayınır və israrla bundan imtina edir. Ermənistan 30 ildir itkin düşənlərin taleyinin müəyyən edilməsi məsələsindən yayınır.

1949-cu il Cenevrə konvensiyalarına əsasən, əsirləri saxlayan qurum həlak olmuş hərbi əsirlər haqqında məlumatların qeydə alınmasını və bu əsirlərin mənsub olduğu quruma ötürülməsini təmin etməlidir. Əsirləri saxlayan qurum həmçinin köçürülən, azad edilən və ya qaçan hərbi əsirlər haqqında informasiyanı təqdim etməlidir. Cenevrə konvensiyaları silahlı münaqişələrdən zərər çəkmiş şəxslərin, o cümlədən itkin düşmüş şəxslərin hüquqlarını və ləyaqətinin qorunmasının vacibliyini vurğulayır, onların ailələrinin çəkdiyi iztirabları yüngülləşdirməyi hədəfləyir.

İtkin düşmüş azərbaycanlılarla bağlı məlumatları gizlədən Ermənistan beynəlxalq humanitar hüququ və yuxarıda qeyd olunan Cenevrə konvensiyalarını, insan hüquqlarını, itkin düşmüş şəxslərin və onların ailə üzvlərinin itkinlərin taleyi ilə bağlı məlumat almaq hüququnu kobud şəkildə pozur. 30 ildən çoxdur ki, Azərbaycanda itkin düşmüş şəxslərin ailələri Ermənistan tərəfindən bu fundamental hüquqdan məhrum edilib.

"Qarabağ İtkin Ailələri" İctimai Birliyinin araşdırmaları göstərir ki, Birinci Qarabağ müharibəsi zamanı 61 ailənin hər birinin 2-7 ailə üzvü itkin düşüb, lakin onların heç birinin taleyi hələ də məlum deyil. Bu ağır vəziyyət nəinki itkin düşmüş azərbaycanlıların ailələrinə dərindən təsir edir, həm də bəşəriyyət üçün utancvericidir.

Son illər itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq dövlət qurumları tərəfindən ciddi səylər göstərilib. Bu təşəbbüslər nəticəsində ailələrdən bioloji nümunələrin toplanması, DNT profillərinin çıxarılması və azad edilmiş ərazilərdə qazıntıların aparılması təşkil edilib ki, bu da ailələrə ümid hissi aşılayır. Buna baxmayaraq, bir müddət öncə 9 kütləvi məzarın üzə çıxması bizi dərindən kədərləndirir.

Bu kütləvi məzarlıqlardan 1-i Kəlbəcər rayonunun Başlıbel kəndində, 3-ü Xocavənd rayonunun Edilli kəndində, 1-i Xocalı rayonunun Fərrux kəndində, 2-si Şuşa şəhərində, 1-i isə Ağdam rayonunun Sarıcalı kəndində aşkar edilib. Daha bir neçə kütləvi məzarlıq müəyyən edilib və bu istiqamətdə araşdırmalara başlanılıb.

İnsanların qeyri-insani şəraitdə, sistematik şəkildə öldürülməsi və bu cür basdırılması onların izlərini silməklə bərabər, bu insanlıq dəyərlərinə hörmətsizlik deməkdir və ağlasığmaz vəhşiliyin sübutudur.

İtkin düşmüş şəxslərin problemi qlobal problemdir. Bu, ümumbəşəri miqyasda rezonans doğuran, dünyanın müxtəlif regionlarına və ölkələrinə təsir edən problemdir. Silahlı münaqişələr və ya digər hallar səbəbindən insanların itkin düşməsi fenomeni bu aktual narahatlığı aradan qaldırmaq üçün xalqların və beynəlxalq təşkilatların birgə məsuliyyətini vurğulayır.

İtkin düşmüş şəxslərin problemini həll etmək səyləri onların tapılması və müəyyən edilməsi, ailələrinə dəstək verilməsi, insan hüquqları, ləyaqət prinsiplərinin müdafiəsi məqsədilə əməkdaşlığı, hüquqi çərçivələr müəyyən etməyi və humanitar təşəbbüslərin həyata keçirilməsini tələb edir.

Biz Ermənistanı Birinci Qarabağ müharibəsi zamanı işgəncə düşərgələrində işgəncələrə, qeyri-insani rəftara və ölümə məruz qalmış 4000 azərbaycanlının dəfn olunduğu kütləvi məzarlıqların coğrafi koordinatlarını verməyə çağırırıq.

Biz Beynəlxalq Qırmızı Xaç Komitəsini itkin düşmüş azərbaycanlıların taleyini və harada olduqlarını aydınlaşdırmaq üçün səyləri artırmağa və bu məqsədlə Ermənistanla dialoqa getməyə çağırırıq.

Biz İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanı (ICMP) Birinci və İkinci Qarabağ müharibələri zamanı itkin düşmüş azərbaycanlıların müəyyən edilməsinə və onların taleyi ilə bağlı məlumatların əldə edilməsinə diqqəti artırmağa çağırırıq.

Biz beynəlxalq təşkilatlardan tələb edirik ki, Ermənistanı itkin düşmüş şəxslərlə bağlı məlumatları təcili açıqlamağa, kütləvi məzarlıqların yerlərini təqdim etməyə çağırsın.

Biz BMT-yə müraciət edirik ki, BMT-nin itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisi institutu yaradılsın və məruzəçi bu qlobal problemi, hələ də sonrakı taleyi məlum olmayan itkin şəxslərlə bağlı problemlərin həllinə töhfə versin.

İmzalar:

*1. Ayşa Hafizoviç Hadcimeşiç, "Srebrenitsa anaları və Jepa Anklavı" İctimai Birliyi, Bosniya və Herseqovina;*
*2. Petsi Stillo, "Sağlamlıq Tərəfdaşları", ABŞ;*
*3. Eliud Emeri, "Keniya Öt Kökləri Təşkilatlarının Konsorsiumu", Keniya;*
*4. Adv Məhəmməd Buks, "Sukaar Rifah Təşkilatı", Pakistan;*
*5. Piter Oviti, "WOTE" Gənclərin Layihələrinin İnkişafı Təşkilatı, Keniya;*
*6. Risikat Abimbola Akevula, "Nigeriya Ekoloji Cəmiyyəti", Nigeriya;*
*7. Mohmad Hüseyn Loun, "İnsan Hüquqları üzrə Beynəlxalq Komissiya", Hindistan;*
*8. Lindokule Sibiya, "Gənclər və Qadınlar Dəyişikliklər üçün Təşkilat", Esvatini;*
*9. Ridhivani Sadiqi, "Keniyanın inkişafı üzrə Vətəndaş Şəbəkəsi", Keniya;*
*10. Hote Kasonqo İlunqa, "Biso İnsanlar", Konqo Demokratik Respublikası.*

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar yardım göstərməyə hazırdır

*Əvvəli 1-ci səh.*

Biz ortaya xoş məram qoyuruq. Azərbaycan Qızıl Aypara Cəmiyyəti olaraq missiyamız çərçivəsində ölkənin hər yerində, o cümlədən Qarabağ iqtisadi zonasında, Xankəndində həssas təbəqəyə yaxın olmağa hazırıq".

Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan ermənəsilli sakinlər üçün 40 ton un göndərilib. Yük avtomobilləri Rusiya sülhməramlılarının Ağdam-Xankəndi yolundakı postunda gözləyir. Humanitar yükün Xankəndinə çatdırılmasına şərait yaradılması üçün Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət olunub.

❖ ❖ ❖

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan ermənəsilli sakinlər üçün göndərilən humanitar yükün ünvana çatdırılması məqsədilə danışıqlar aparılır. Texniki məsələləri həll edəndən sonra yardımları həyata keçirəcəyik.

Bunu jurnalistlərə açıqlamasında AzQAC-ın prezidenti Novruz Aslan deyib.

"Sülhməramlı qüvvələrlə mütəmadi olaraq danışıqlar gedir. Bizim tərəfdaşlarımız da prosesi izləyirlər, lazım olanda onlar da prosesə qoşula bilərlər. İnanıram ki, bu məsələ yaxın vaxtda öz həllini tapacaq", - deyə o əlavə edib.

Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan ermənəsilli sakinlər üçün 40 ton un göndərilib. Yük avtomobilləri Rusiya sülhməramlılarının Ağdam-Xankəndi yolundakı postunda gözləyir.

Humanitar yükün Xankəndiyə çatdırılmasına şərait yaradılması üçün Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət olunub.

# Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlılarla bağlı hesabat hazırlanıb

Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva tərəfindən hesabat hazırlanıb. Hesabat 30 Avqust - Beynəlxalq İtkin Düşmüş Şəxslər Günü ilə əlaqədar aidiyyəti beynəlxalq təşkilatlara ünvanlanıb.




Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hesabatın hazırlanmasında əsas məqsəd 4 minə yaxın itkin düşmüş azərbaycanlının bu günədək naməlum qalan taleyi ilə bağlı məsələnin, habelə onların ailələrinin çağırışlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, itkin düşmüş şəxslər haqqında məlumatların verilməsinin təmin edilməsidir.

Məlumdur ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bu günədək bir neçə kütləvi məzarlıq aşkarlanıb və tapılan qalıqların eyniləşdirilməsi aparılaraq onların itkin düşmüş azərbaycanlılara məxsus olması təsdiqini tapır. Bu faktlar Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərini, beynəlxalq hüququn norma və prinsiplərini birbaşa pozması hallarını sübut edir. Ombudsmanın hesabatında da bu mövzuya toxunulub və itkin düşmüş azərbaycanlılarla bağlı məlumatları təqdim etməsi üçün Ermənistana dünya ictimaiyyəti tərəfindən çağırışlar edilməsinin vacibliyi vurğulanıb.

Azərbaycan və ingilis dillərində hazırlanmış hesabatda Birinci Qarabağ müharibəsində və sonrakı dövrdə itkin düşmüş şəxslərlə bağlı milli və beynəlxalq qurumlarla əməkdaşlıq nəticəsində əldə edilmiş məlumatlar toplanaraq ümumiləşdirilib. Eyni zamanda ombudsman Səbinə Əliyeva və Aparatın əməkdaşlarının itkin düşmüş şəxslərin ailə üzvləri, ermənilər tərəfindən girovluqda saxlanmış şəxslərlə keçirdiyi görüşlər, bu görüşlər zamanı doğmalarının həmin şəxslər haqqında verdiyi məlumatlar hesabatda əksini tapıb. Bununla yanaşı, ombudsman bu günədək bu sahədə həyata keçirilmiş fəaliyyətlə bağlı yerli və xarici mətbuatda yayımlanmış informasiyanın ümumiləşdirilməsi aparılıb, aidiyyəti foto və videomateriallardan istifadə edilib.

# "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin 30 Avqust - Beynəlxalq İtkinlər Günü münasibətilə müraciəti

"Qarabağ İtkin Ailələri" İctimai Birliyi 30 Avqust - Beynəlxalq İtkinlər Günü münasibətilə dünya ictimaiyyətinə müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir.

"XX əsrin 90-cı illərində Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, nəticədə Birinci Qarabağ müharibəsində dörd min nəfərə yaxın Azərbaycan vətəndaşı itkin düşüb. Təəssüf ki, hərbi təcavüz nəticəsində hərbçilərlə yanaşı, aralarında uşaqların, qadınların və qocaların da olduğu yeddi yüzdən artıq mülki şəxs də itkin düşüb.

İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərin, o cümlədən 29 uşaq, 98 qadın və 112 qocanın əsir-girov götürülməsi və ya işğal edilmiş ərazilərdə qalması şahid ifadələri ilə təsdiq edilib.

Bir sıra hallarda isə insanlar ailə üzvləri və yaxınları ilə birlikdə itkin düşüb, bütöv ailələr və nəsillər məhv edilib. Araşdırmalar təsdiqləyir ki, Birinci Qarabağ müharibəsində 61 ailənin 2-dən 7-dək üzvü itkin düşmüş və onlar barədə bu illər ərzində heç bir məlumat verilməyib. Bu hal yalnız azərbaycanlı itkinlərin ailələrinə deyil, bütün insanlığa hörmətsizlikdir.

Faktlar və şahid ifadələri təsdiqləyir ki, Birinci Qarabağ müharibəsində Ermənistan hərbçiləri tərəfindən Azərbaycan Respublikasının suveren əraziləri işğal edilərkən beynəlxalq humanitar hüquq normaları kobud halda pozularaq mülki əhali hədəfə alınıb, qarşı tərəfin yaşayış məntəqələrinə qəfil hücumu zamanı evlərini tərk edə bilməyən ahıl insanlar yaşadıqları evlərlə birlikdə yandırılıb, döyülərək ağır işgəncələrə məruz qalıb, ağaclardan asılıb və ya güllələnib.

Beynəlxalq humanitar hüququn və onun əsas mənbəyi olan 1949-cu il tarixli 12 avqust Cenevrə konvensiyalarının tələblərinə əsasən, silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər barədə onların ailələrinin məlumat almaq haqqı birmənalı şəkildə tanınır. Lakin 30 ildən çoxdur ki, itkin düşmüş azərbaycanlıların ailə üzvləri bu hüquqdan məhrum edilib. Ermənistanın itkin düşmüş azərbaycanlılar barədə məlumatları təqdim etməkdən imtina etməsi onların ailələrini əzab və iztirablara məhkum edib. Ermənistanın qeyri-humanist mövqeyi nəticəsində minlərlə itkin ailəsi 30 ildir ki, bu dəhşətli faciənin acısı ilə yaşamağa məcbur edilmiş, yaxınları barədə məlumat ala bilməyib.

Məlumdur ki, Birinci Qarabağ müharibəsində işğal edilmiş Azərbaycan əraziləri 30 il ərzində Ermənistan ordusunun nəzarətində olub. Bu səbəbdən itkin düşmüş bütün şəxslər, o cümlədən onların dəfn yerlərinə dair ətraflı məlumatlar Ermənistan tərəfindədir. Ermənistan parlamentinin deputatı, Ermənistan müdafiə nazirinin keçmiş müavini general-leytenant Qaqik Melkonyanın 2021-ci ilin dekabrında Ermənistan kütləvi informasiya vasitələrinə verdiyi müsahibəsi bunu bir daha təsdiq edir. Həmin müsahibədə Qaqik Melkonyan 1994-cü ildə Azərbaycan Ordusunun həlak olmuş yüzlərlə hərbi qulluqçusunun meyitlərinin döyüş meydanında qaldığını və ermənilərin onları dəfn etdiyini bildirib. Məsələ ilə bağlı Azərbaycan tərəfindən beynəlxalq təşkilatların vasitəçiliyi ilə Ermənistana rəsmi müraciət edilsə də cavab alınmayıb.

2020-ci ilin sentyabr ayında Ermənistan silahlı qüvvələrinin təxribatı ilə bağlı əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan Ordusu Vətən torpaqlarını işğaldan azad edərək BMT-nin 1993-cü ildə qəbul etdiyi qətnamələri özü icra etdi. Lakin işğal dövründə əraziləri Ermənistan tərəfindən minalarla həddindən artıq çirklənməsi oradan qovulmuş insanlara, o cümlədən itkin ailələrinə yurd yerlərinə getməyə imkan vermir. Bundan başqa, Ermənistan nə dəqiq mina xəritələrini, nə də itkinlərin kütləvi məzarlıqları barədə məlumatları Azərbaycana təqdim etmir. Mina xəritələrinin verilməməsi səbəbindən son üç ildə üç yüzdən artıq Azərbaycan vətəndaşı mina partlayışının qurbanına çevrilib.

Son illərdə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumları tərəfindən itkinlərin sonrakı taleyinin aydınlaşdırılması sahəsində atılan addımlar, o cümlədən ailələrdən bioloji nümunələrin götürülməsi, DNT profillərinin çıxarılması, işğaldan azad edilmiş ərazilərdə qazıntıların aparılması itkin ailələrində böyük ümidlər yaradır. Ancaq qısa müddətdə 10 kütləvi məzarlığın və yaxınlarımızın işgəncələrlə qətl edilərək qeyri-insani halda basdırılması faktlarının aşkar edilməsi qəlbimizi göynədir.

Təhlillər, o cümlədən Q.Melkonyanın məlumatı yeni-yeni kütləvi məzarlıqların aşkar ediləcəyini göstərir. İnsanların işgəncələrlə öldürülərək kütləvi halda basdırılması və izlərinin itirilməsi bütün insani dəyərlərə hörmətsizlikdir.

Biz - Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində itkin düşmüş 4 min nəfərə yaxın azərbaycanlının ailə üzvlərini birləşdirən ictimai təşkilat kimi itkin ailələri adından Ermənistanın baş naziri Nikol Paşinyandan itkin düşmüş Azərbaycan vətəndaşları, həmçinin kütləvi məzarlıqlar barədə məlumatların Azərbaycan tərəfinə təqdim edilməsini tələb edirik.

Q.Melkonyan Ermənistanın baş nazirinin rəhbərlik etdiyi siyasi partiyadandır və buna görə də N.Paşinyan ən azı Q.Melkonyanın öz müsahibəsində bildirdiyi kütləvi məzarlığın yeri barədə məlumatın Azərbaycan tərəfinə verilməsini təmin edə bilər.

Biz həm də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişeli, ABŞ dövlət katibi Entoni Blinkeni itkin düşmüş şəxslərin taleyi barədə məlumatların açıqlanması və kütləvi məzarlıqlara dair məlumatların Azərbaycan tərəfinə təqdim olunması üçün Ermənistana çağırış etməyə və təzyiq göstərməyə çağırırıq.

Beynəlxalq Qırmızı Xaç Komitəsini və İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanı bu sahədə səylərini daha da artırmağa çağırırıq.

İtkin düşmüş şəxslər problemi yalnız Azərbaycan üçün aktual deyil, qlobal mahiyyətlidir. Buna görə də BMT baş katibi cənab Antonio Quterreşi BMT-nin itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisini təyin etməyə çağırırıq.

Biz - azərbaycanlı itkin ailələri dünyada baş verən bütün silahlı münaqişələrin tezliklə başa çatmasını, dünyada sülhün və əmin-amanlığın bərqərar olmasını, milli kimliyindən asılı olmayaraq heç bir insanın itkin düşməməsini arzu edirik".

# Bakıda INTOSAI-nin Maliyyə Auditi və Mühasibatlıq üzrə alt komitəsinin illik toplantısı keçirilir

Avqustun 30-da Bakıda Azərbaycan Respublikası Hesablama Palatasının evsahibliyi ilə INTOSAI-nin Maliyyə Auditi və Mühasibatlıq üzrə alt komitəsinin illik toplantısı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, toplantıdan öncə tədbir iştirakçıları Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, güllər düzüblər. Sonra Şəhidlər xiyabanına gedərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları önünə gül dəstələri qoyublar.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar dahi rəhbərin həyat və fəaliyyətini əks etdirən film nümayiş olunub.

Daha sonra tədbiri açan Hesablama Palatasının auditoru Hilal Hüseynov alt komitənin gördüyü işlər barədə ümumi məlumat verib, maraqlı tərəflərin dövlət sektorundan gözləntilərindən, dövlət maliyyəsinin idarə edilməsinin modernizasiyasından, o cümlədən uçot və hesabatlılıq sahəsində aparılan islahatların audit sahəsində əhəmiyyətli dəyişikliklərə təkan verməsindən bəhs edib.

Bildirib ki, INTOSAI-nin Maliyyə Auditi və Mühasibatlıq üzrə alt komitəsi maliyyə auditi və mühasibatlıq fəaliyyətinin keyfiyyətinin artırılmasına töhfə verən ekspert qrupudur. Bu qrupun toplantılarında dünyanın müxtəlif regionlarından olan ölkələrin ali audit orqanları iştirak edir, bir sıra nüfuzlu beynəlxalq qurumlar da iştirak edirlər: "Azərbaycan Respublikasının Hesablama Palatası olaraq ötən il illik toplantıda iştirak etməklə müşahidəçi qismində alt komitəyə qəbul edilmişik. Alt komitəyə üzvlükdə əsas məqsədlərimizdən biri də dövlət maliyyə idarəedilməsi sahəsində baş verən dəyişikliklərə adekvat şəkildə fəaliyyətimizin qurulması, yenilikləri yaxından izləməmiz və buna müvafiq addımların atılmasıdır. Məlum olduğu kimi, dövlət idarəetməsində islahatların həyata keçirilməsi, maraqlı tərəflərin dövlət sektorundan gözləntiləri bir sıra ölkələrdə dövlət maliyyəsinin idarəedilməsinin modernizasiyasını, o cümlədən uçot və hesabatlılıq sahəsində islahatların aparılmasını labüd etmişdir".

Diqqətə çatdırılıb ki, uçot və hesabatlılıq sahəsində aparılan islahatlar audit sahəsində də əhəmiyyətli dəyişikliklərə təkan vermişdir. Belə ki, dövlət sektorunda hesablama əsaslı uçotu, büdcəni tətbiq edən, ilin sonuna maliyyə hesabatlarını bu əsasla təqdim edən ölkələrin Ali Audit Orqanlarının (AAO) fəaliyyəti də yeni çağırışların tələbləri nəzərə alınmaqla inkişaf etməkdədir. Bu islahatlar qısamüddətli dövrdə ayrı-ayrı qurumlar tərəfindən maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun hazırlanması və həmin hesabatlara AAO tərəfindən rəy verilməsi ilə başlayır. Uzunmüddətli dövrdə isə dövlət büdcəsinin, bəzi hallarda dövlət maliyyəsinin bütün komponentləri üzrə konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması və buna AAO tərəfindən rəy verilməsi ilə davam edir.

"Ölkəmizdə də son illərdə dövlət maliyyəsinin idarəedilməsində aparılan islahatlar uçot və hesabatlılıq sahəsini də əhatə etmişdir. Burada xüsusilə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda edilən dəyişikliklər vurğulanmalıdır. Dəyişikliklərə əsasən ölkəmizdə mühasibat uçotu subyektləri tərəfindən müvafiq olaraq beynəlxalq uçot standartları tətbiq edilməlidir. Ölkəmizdə mövcud qanunvericilik dövlət sektoru üzrə maliyyə auditinin aparılmasında və nəticələrinin verilməsində ayrı-ayrı qurumların maliyyə hesabatlarının yoxlanılması təcrübəsini labüd edir. Bu şərtlər nəzərə alınmaqla, 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planımızda maliyyə auditinin əhatə dairəsinin artırılması və keyfiyyətinin yüksəldilməsi ilə bağlı aralıq nəticə nəzərdə tutulub. Hədəflərə çatmaq uğrunda başlanılan yolda 2 ildə bir sıra əhəmiyyətli işlərin görülməsinə nail olunub. Bura beynəlxalq standartlara əsaslanan maliyyə audit üzrə təlimatın hazırlanması, il ərzində keçirilən maliyyə auditlərinin sayının artması, maliyyə auditində risk əsaslı və nəzarətyönümlü audit yanaşmalarının tətbiqi, kadr potensialının gücləndirilməsində peşəkar sertifikatlaşmaya diqqətin verilməsi və digər tədbirlər aiddir", - deyə auditor vurğulayıb.

Tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin, Avstriyanın, ABŞ-nin və digər ölkələrin nümayəndələri INTOSAI səviyyəsində əldə edilmiş son nailiyyətlərdən danışıblar.

Qeyd edək ki, sentyabrın 1-dək davam edəcək tədbirdə ali audit orqanlarının beynəlxalq standartlarında edilmiş dəyişikliklərdən, həmçinin üzv ali audit orqanları maliyyə auditi sahəsindəki təcrübələrindən, tətbiq edilən audit metodologiyaları ilə əlaqədar qarşıya çıxan çətinliklərdən bəhs olunur.

**“Böyük qayıdış” proqramı sürətlə icra olunur**

# Yurda qayıdışın təntənəsi



**Otuz il ərzində dağıdılıb viran qoyulan, xarabazarlığa çevrilən torpaqlarımız artıq əzəli sahiblərinə qovuşur.**

Böyük Zəfərimizdən qısa müddət keçməsinə baxmayaraq, düşmən tapdağından azad edilən ərazilərimizdə sürətlə bərpa-quruculuq işləri aparılır, kəndlər, şəhərlər yenidən qurulur, həyat canlanır. Bütün bunlar Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, birbaşa nəzarəti ilə həyata keçirilir.

## Məcburi köçkünlərin arzuları reallaşır

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın və Füzuliyə məcburi köçkünlərin dönüşü təmin olunub və bu istiqamətdə işlər sürətlə davam etdirilir.

Xatırladaq ki, Böyük qayıdış çərçivəsində evinə, ata-baba yurduna ilk qədəmlərini basanlar ötən ilin iyul ayında ağalılılar olmuşdurlar. Zəngilanın Ağalı kəndində indiyədək 526 nəfərin yaşayışı təmin edilmişdi. Martın 16-da Tərtər rayonunun Talış kəndinə isə ilkin mərhələdə 20 məcburi köçkün ailəsi - 90 nəfər köçürülmüşdü.

## İlin sonuna qədər daha 900 ailə Laçına köçəcək





Laçına mayın 28-dən başlayan Böyük qayıdış sayəsində indiyədək 247 ailə, 1000-ə yaxın laçınlı doğma evlərinə qovuşmağın sevincini yaşayıb. Bu ilin sonuna qədər daha 900 ailə doğma yurduna qayıdacaq. Bunun üçün yeni evlərin tikintisinin başa çatdırılması nəzərdə tutulub.

Avqustun 26-da hər birimiz üçün önəmli tarix olan Laçın Şəhəri Günü təntənəli şəkildə ilk dəfə qeyd olundu. Artıq bir ildir ki, Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı dalğalanır. Bu əlamətdar gündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva laçınlıların yanında oldular. Onlar Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq meydanının qarşısında keçirilən bayram şənliklərində iştirak etdilər.

Laçınlıları bayram münasibətilə təbrik edən Prezident Laçın həsrəti çəkən digər soydaşlarımıza da xoş müjdə verdi: "Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq".

## İlin sonuna kimi 10 minə yaxın insanın doğma el-obalarında məskunlaşdırılması nəzərdə tutulub

Avqustun 18-də Füzuliyə ilk köç karvanının yola salınmasında iştirak edən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov bildirib ki, köç ölkə Prezidentinin tapşırıqlarına əsasən, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir: "Ümumilikdə bu günədək Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında 400-ə yaxın keçmiş məcburi köçkün ailəsi - 2000-ə yaxın insan daimi məskunlaşdırılıb. Bu ilin sonunadək ümumilikdə 2 000-ə yaxın keçmiş məcburi köçkün ailəsi, 10000-ə yaxın insanın doğma el-obalarında məskunlaşdırılması nəzərdə tutulub".

Füzuli şəhərinə baş tutan ilk köç karvanında 90 nəfər olub. Avqustun 21-də və 22-də isə növbəti 24 ailə - 68 nəfər və 23 ailə - 89 nəfər Füzulidə məskunlaşdırılıb. Bununla da ümumilikdə 247 nəfərin Füzuli həsrətinə son qoyulub.

## İşğaldan azad olunmuş ərazilərdə həyat yenidən qaynayır

Böyük qayıdış sürətlə davam edir. Otuz il öncə ah-nalə ilə yurdlarından didərgin salınan soydaşlarımız fərəh, qürur, böyük arzu və ümidlərlə həyatlarının yeni səhifəsinə başlayırlar. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə həsrətində olduqları doğma yurdlarına köçürlər, bu yerlərdə həyat yenidən öz axarına qayıdır.

Qarabağ və Şərqi Zəngəzurda insanların rahat və firavan yaşaması üçün bütün lazımi şərait yaradılır. İşğaldan azad edilmiş ərazilərdə Prezidentin birbaşa tapşırığı və nəzarəti ilə aparılan bərpa-quruculuq işləri bu yerlərin tezliklə cənnətməkana çevriləcəyinə əminlik yaradır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# "Beynəlxalq Təmiz Enerji Günü" təsis olundu

## Azərbaycan da hər il yanvarın 26-sını bu sahədəki uğurları ilə qeyd edəcək

Bundan sonra hər il yanvarın 26-sı "Beynəlxalq Təmiz Enerji Günü" kimi qeyd ediləcək. Bu barədə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasında qətnamə qəbul edilib.

Agentliyin saytında bildirilib ki, təmiz enerjiyə hədəflənən xüsusi günün yaradılması enerji keçidinə nail olmaq, həmçinin "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi"nin icrası istiqamətdə işlərin sürətləndirilməsinə töhfə verəcək.

"Beynəlxalq Təmiz Enerji Günü"nün yanvarın 26-da qeyd edilməsi təsadüfi deyil. Çünki yanvarın 26-sı Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) təsis edildiyi gündür. Xatırladaq ki, IRENA 2009-cu ilin həmin günündə Bonn şəhərində təsis olunub.

Bərpaolunan enerjidən istifadə getdikcə dünyada özünə daha geniş yer alır. Beynəlxalq Enerji Agentliyinin proqnozuna görə, dünyanın enerji sistemi "xalis sıfır" emissiyalar cığırı ilə irəliləyərsə, əsrin ortasında elektrik enerjisi istehsalının 90 faizə qədəri bərpaolunan enerji mənbələrinin payına düşər. Bunun da 70 faizi günəş və külək enerjisi mənbələrindən alınar.

Azərbaycanda da Prezident İlham Əliyevin bərpaolunan enerji mənbələrini ölkənin inkişafında strateji prioritet kimi müəyyənləşdirən "yaşıl enerji" kursu uğurla həyata keçirilir. "Azərbaycan 2030": sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsi əhəmiyyətli yer alıb. Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payını indiki 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Bunun üçün ölkəmizin böyük potensialı var. Yəni Azərbaycan günəşi bol olan ölkədir və bu, günəş-elektrik stansiyalarının tikilməsinə şərait yaradır. Bir sıra dağ rayonlarımızın təbiəti isə külək enerjisinin istehsalına imkan verir. Üstəgəl, Xəzər dənizi kimi nəhəng bir enerji mənbəyi...

Hazırda Azərbaycanda bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr reallaşır. Keçən ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub. Perspektivdə yeni layihələrin gerçəkləşməsi dayanır.

Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan edib. Xatırladaq ki, buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Hazırda Cəbrayıl rayonunda bp şirkəti ilə birlikdə "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisinə hazırlıq görülür.

Ölkəmizin bərpaolunan enerji istehsalı sahəsində imkanları Avropa İttifaqı tərəfindən də yüksək dəyərləndirilir. Artıq külək və günəş enerjisinə sərmayə qoyuluşu prosesinə başlanıb. Bərpaolunan enerji potensialı ilə bağlı ilkin qiymətləndirmə də aparılıb. Bu məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında keçən ilin iyulunda imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda da öz əksini tapıb.

Nəzərdə tutulan işlər uğurla icra edilir. Azərbaycanda "yaşıl enerji" sahəsinin inkişafı üçün yeni-yeni perspektivlər açılır. Cari il yanvarın 15-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Masdar" arasında ölkəmizdə 2 QVt gücündə Dənizdə Külək və Hidrogen Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişinin, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişinin imzalanması deyilənlərin daha bir təsdiqidir. Təsadüfi deyil ki, dövlətimizin başçısı Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimindəki çıxışında bu hadisənin önəmini vurğulamışdır. Prezident əsasən enerji məsələlərindən bəhs edərək bildirmişdir ki, biz bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik: "Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

Beləliklə, yaxın zamanlarda Azərbaycan həm də "yaşıl enerji" ixrac edəcək. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisi istehsal etmək nəzərdə tutulur. Bunun 80 faizi ixrac olunacaq.

Keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmsı da buna zəmin yaradır. Belə ki, bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac var. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

BMT Beynəlxalq Təmiz Enerji Gününü təsis edərkən məhz dünyada bu sahənin getdikcə daha böyük önəm kəsb etdiyinə əsaslanıb. Təmiz enerjiyə nail olmaq istiqamətində görülən işlərdə ölkəmizin də öz dəst-xətti var.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Azərbaycan istənilən qlobal layihəni icra etmək gücündədir

## Buna daxili maliyyə imkanlarımız təminat verir

Dünyada gedən siyasi proseslərin qlobal iqtisadiyyata mənfi təsiri səngimir. Rusiya-Ukrayna müharibəsi, Avropanın Rusiyanın enerji resurslarından imtina etməsi təkcə şimal qonşumuzda deyil, "qoca qitə"də də iqtisadi artımı bu və digər dərəcədə zəiflədir. Uzunmüddətli iqtisadi və ticarət əlaqələrinin qırılması da illərlə formalaşmış iqtisadi münasibətlərə mənfi təsirsiz ötüşmür.

Bütün bunların fonunda, daha doğrusu, mövcud siyasi qarşıdurma səbəbindən dünyada yeni iqtisadi birliklərin formalaşması prosesi gedir. BRİCS-in (5 ölkənin - Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikanın dövlətlərarası birliyi) yaranması və onun sıralarının genişlənəcəyinin gözlənməsi gələcəkdə yeni iqtisadi münasibətlərin formalaşmasından xəbər verir. Mütəxəssislərin hesablamalarına görə, yaxın bir neçə ildə BRİCS-ə üzv dövlətlər məhsul istehsalında "böyük yeddilər"i keçəcəklər. Çünki əhali sayı və təbii resurslar baxımından BRİCS-in imkanları daha genişdir.

Birləşmiş Qərb uzun illər dünyanın mövcud təbii resurslarını və kapitalını nəzarət altında saxlayırdı. Artıq bunun geriyə dönüşünün şahidi oluruq. Xüsusilə Asiya və Afrika ölkələri sürətlə Qərbin istismarçı iqtisadi əməkdaşlığından imtina edirlər. Bunun əvəzində Çinin iqtisadi nüfuzu dünyada sürətlə artır. Səbəbi Çinin iqtisadi partnyorlarına səmərəli və ədalətli əməkdaşlıq təklif etməsidir. Üstəlik, ÇXR iqtisadi cəhətdən əməkdaşlıq etdiyi ölkələrin daxili siyasətinə qarışmır.

Hazırda bu cür iqtisadi güclərin yenidən formalaşması prosesinin nə qədər davam edəcəyi məlum deyil. Nüfuzlu mütəxəssislər bu qənaətdədirlər ki, vəziyyət 10 il davam edə bilər. Digər tərəfdən Avropa İttifaqının timsalında Qərb tərəfindən başlanılan bu siyasət artıq istənilən səviyyədə səmərə vermir. Belə ki, uzun illər Birləşmiş Qərb əlində olan kapitaldan istifadə etməklə yüksək gəlir götürürdü. Eyni zamanda yüksək faizlə borclandırdığı ölkələri nəzarət altında saxlayırdı. İndi isə bəzi ölkələrin Çin sərmayəsindən istifadə etməsi Qərb banklarının gəlirliliyini də azaldıb. Belə qeyri-müəyyən vəziyyət Qərb banklarının xarici ölkələrdə kapital qoyuluşu layihələrində iştirakını xeyli zəiflədib. Kapital qoyuluşu isə sərbəst iqtisadiyyatın inkişafını və dayanıqlığını təmin edən əsas iqtisadi alətdir.

Ölkəmizdə aparılan iqtisadi islahatlar və münbit investisiya mühiti xarici kapital qoyuluşunu stimullaşdıran başlıca faktordur. Təsadüfi deyil ki, bu proseslər başlanmazdan əvvəl Azərbaycan xarici kapital qoyuluşuna görə MDB-də lider dövlət idi, həmçinin bir çox Şərqi Avropa ölkələrini üstələyirdi. Düzdür, indi qeyd etdiyimiz səbəblərdən Azərbaycana xarici kapital qoyuluşu bir qədər azalıb. Ancaq əvəzində dövlət sərmayəsinin və daxili investisiyanın həcmi artıb. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında ümumi sərmayənin 53 faizi dövlət, 47 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Yatırılan sərmayənin 73,3 faizindən tikinti-quraşdırma işlərində istifadə olunmuşdur. Bunun əsas səbəbi işğaldan azad edilən ərazilərdə icra olunan nəhəng tikinti layihələridir.

Hesabat dövründə ölkənin sosial-iqtisadi sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9 milyard 114,9 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz çox vəsait yönəldilmişdir. Bu dövr ərzində neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 15, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 24,3 faiz artmışdır. Qeyri neft-qaz sektoruna sərmayə qoyuluşunun belə yüksək artımı icra edilən iqtisadi islahatlar və özəl sektorun inkişafı ilə bağlıdır.

Hesabat dövründə ümumi sərmayənin 5 milyard 45 milyon manatı məhsul istehsalı, 3 milyard 600,5 milyon manatı xidmət sahələrinin, 469,4 milyon manatı isə yaşayış sahələrinin tikintisinin payına düşmüşdür.

Əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların vəsaitləri 4 milyard 75,9 milyon, büdcə vəsaitləri 3 milyard 620,7 milyon, əhalinin şəxsi vəsaitləri 608 milyon, bank kreditləri 273,2 milyon, sair vəsaitlər isə 537,1 milyon manat olmuşdur.

Cari ilin yanvar-iyul aylarında neft-qaz sektoruna 3 milyard 237,1 milyon manat vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına yönəldilmiş 5 milyard 877,8 milyon manatlıq vəsaitin 453,8 milyon manatından qeyri neft-qaz sənayesi sektorunun inkişafında istifadə edilmişdir.

Qeyd etdiyimiz kimi, dünyada baş verən siyasi qarşıdurmalar sayəsində qlobal iqtisadiyyata kapital qoyuluşu azalıb. Ancaq ölkəmizdə olan münbit investisiya mühiti və yüksək iqtisadi dinamika xarici sərmayədarları hələ də özünə cəlb edir. Hesabat dövründə Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Fransa, Yaponiya, Rusiya, İsveçrə və Norveç səhmdarları Azərbaycanda müxtəlif sahələrə 2 milyard 38,6 milyon manat investisiya yatırmışlar.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri isə ümumi sərmayənin 75,5 faizini təşkil etmişdir. Bu fakt bir daha göstərir ki, Azərbaycan maliyyə cəhətdən heç bir ölkədən və ya qurumdan asılı deyil və özü istənilən qlobal layihəni reallaşdırmaq gücündədir. Bunu işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri də sübut edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# REGİONLAR

## Dost təkcə yaman gündə tanınmır

### Bu gün Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsində xarici şirkətlər də fəal iştirak edirlər

**Otuz il işğal altında qalmış Qarabağ və Şərqi Zəngəzurun təbii sərvətlərini təkcə ermənilər talamamışlar. Bəzi xarici şirkətlər də bu talançılıqda işğalçılara kömək etmiş, dəstək vermişlər.**



Azərbaycanın icazəsi olmadan ərazilərimizdə fəaliyyət göstərən həmin şirkətlər mədənçilik, tikinti, ağac emalı, telekommunikasiya və digər sahələr üzrə çalışaraq külli miqdarda qazanc götürmüşlər. Ümumilikdə Azərbaycanın işğal olunmuş ərazilərində 20-dən artıq ölkənin şirkəti qanunsuz fəaliyyət göstərmişdir.

Gün gəldi bu özbaşınalığa son qoyuldu. Qarabağ azad edildi. Xaricilər də işlərini yarım-yarımçıq qoyaraq arxalarına baxmadan bölgədən qaçdılar. Həmin günlər Türkiyənin "Yeni Şafak" qəzeti yazmışdı: "Dağlıq Qarabağda Ermənistan ordusuyla döyüşə girən və qarşı tərəfə ağır itkilər verdirən Azərbaycan Ordusu sürətlə irəlilədikcə Kəlbəcərdə yerləşən qızıl mədənlərində qanunsuz fəaliyyət göstərən şirkətlər hər şeyi yerdə buraxaraq qaçıblar. Şirkətin bütün əməkdaşları dərhal bölgədən uzaqlaşdırılıb. Kəlbəcərdəki mis və qızıl yataqlarını çox asan şərtlər əsasında istismar edən ən böyük sərmayədar şirkət, ruslara məxsus "Rus GeoProMining Gold" şirkəti də qaçmağa məcbur olub". 2020-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev Qarabağda qanunsuz fəaliyyət göstərmiş "Haik Watch and Jewelry Co", "Rodino Haskovo" JIC, "Centro Ceibal", "Deccan Gold Mines Ltd", "Cosmote Romanian Mobile Telecommunications S.A" və digər şirkətlərə son xəbərdarlığını etdi: "Təbii sərvətlərimizi qanunsuz istismar edən bu şirkətlər təzminat ödəməsələr, məsələ beynəlxalq məhkəmədə həll olunacaq".

Bu gün isə Qarabağ və Şərqi Zəngəzurda tam fərqli reallıq hökm sürür. Azərbaycan işğaldan azad olunmuş əraziləri büsbütün yenidən qurur. Bu işlərin xeyli hissəsi Azərbaycanın öz daxili imkanları hesabına aparılır. Dünyanın gözü qarşısında region hər gün dirçəlir, nəfəs alır, xarabalıqlar abad məkana çevrilir. Onu da deyək ki, bölgədə həyata keçirilən irimiqyaslı layihələrin reallaşdırılması üçün Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılmışdır. Fondu yaratmaqda məqsəd işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini təmin etməkdir.

Artıq üç ildir ki, Qarabağ və Şərqi Zəngəzurda görülən bərpa-quruculuq işləri yeni dövrün çağırışlarına uyğun aparılır. Qısa müddətdə bölgədə görülən işlərin miqyası onu deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzur tezliklə cənnətməkana çevriləcək. Çünki torpaq halallıq sevir. Ona doğma olanların, onu sevənlərin əllərinin hərarətini hiss edir, ürəklərinin istisindən dirçəlir və laləzara, gülüstana çevrilir, yaraları sağalır, düşmənin ayaq izlərindən təmizlənir.

Şəhidlərin qanı, qazilərin canı hesabına qaytarılmış ərazilərimizdə iqtisadiyyat da dirçəlir. Bu işdə yerli və xarici şirkətlərin rolunu danmaq olmaz. İqtisadiyyat Nazirliyinin məlumatına görə, azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə iştirak etmək üçün indiyə kimi 500-ü xarici olmaqla 1500-dən çox şirkət müraciət edib. Bu göstərici istər yerli, istərsə də xarici biznes qurumları üçün Qarabağın və Şərqi Zəngəzurun böyük və çoxistiqamətli iqtisadi potensialının, əlverişli biznes və investisiya imkanlarının nə qədər cəlbedici olduğunu nümayiş etdirir. İşğaldan azad olunmuş ərazilərimizdə ardıcıl olaraq yeni və rahat yaşayış məntəqələrinin salınması, infrastruktur, kommunal, rabitə və sosial xidmətlərin təmin edilməsi və s. işlərlə yanaşı, məqsədyönlü iqtisadi reinteqrasiya tədbirləri də həyata keçirilir. Xüsusən elektrik təchizatı ilə bağlı vacib işlər görülür. Artıq ikisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, digəri isə Kəlbəcər rayonunda Lev çayı üzərində olmaqla 4 su-elektrik stansiyası və 9 elektrik yarımstansiyası inşa edilib. Əraziyə mürəkkəb relyefə malik olan Daşkəsəndən, Kəlbəcərdən də elektrik xətləri çəkilib.

Cəbrayıl və Zəngilan rayonlarında günəş-elektrik stansiyalarının, Kəlbəcər və Laçın rayonlarında külək-elektrik stansiyalarının potensialı çox olduğu üçün xarici investorların bu ərazilərə marağı daha da artıb. O üzdən Azərbaycan xarici şirkətlərdən çoxlu təkliflər alır. Həmçinin bu il "Xudafərin" və "Qız qalası" Su-Elektrik stansiyalarının tikintisi ilə bağlı işlərin sürətləndirilməsi planlaşdırılır. Üstəlik, bp şirkəti ilə Cəbrayılda günəş-elektrik stansiyasının tikintisi üzrə danışıqlar aparılır.

Bunlardan əlavə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, dirçəldilməsi və sənaye potensialının inkişafı məqsədi ilə yaradılan Ağdam və Cəbrayıldakı Araz Vadisi İqtisadi Zonası sənaye parklarına yerli sərmayədarlarla yanaşı, xarici investorlar da xüsusi maraq göstərirlər. Çünki həmin sənaye parklarında sahibkarlar dövlət hesabına infrastrukturla təmin edilir, rezidentlər 10 illiyinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azad olunurlar. Parklar üçün idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azaddır. Hazırda Ağdam Sənaye Parkının 17 rezidenti və 5 qeyri-rezidenti var. İnvestorlar tərəfindən sənaye parkına 161 milyon manatdan çox investisiyanın yatırılması, 1400-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Regionda yeni aqropakların da yaradılmasına başlanılıb. Zəngilandakı "Dost Aqropark"ın təməli iki il öncə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə qoyulub. Hazırda regionda 3 aqropark fəaliyyət göstərir. Bütün bunlar həm də regionda yeni iş yerlərinin açılmasına, məşğulluğun təmin olunmasına şərait yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## İki qardaşın bir taleyi haqda film çəkilib

**Ağdam Muğam Mərkəzində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş "Bir taleli iki insan" filminin təqdimatı keçirilib.**



Rayon icra hakimiyyətinin dəstəyi, "Aztəminatlı, Əlil, Şəhid və Müharibə Veteranları Ailələrinə Kömək" İctimai Birliyinin təşkilatçılığı və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə çəkilmiş film Vətən müharibəsi şəhidləri Nazir və Tacir Allahverdiyev qardaşlarına həsr olunmuşdur.

Filmin təqdimatında şəhidlərin ailə üzvləri, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Aparatın əməkdaşları, YAP Rayon Təşkilatının sədri Mansur Quliyev, ədliyyə general-mayoru Hüseyn Əlixanov, Müdafiə Nazirliyinin əməkdaşları, şəhid ailələri, qazilər, QHT-lərin və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Mərasim Dövlət himninin səsləndirilməsi ilə başlamış və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş vətən övladlarının və Ulu Öndər Heydər Əliyevin xatirələri birdəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov açaraq Nazir və Tacir Allahverdiyev qardaşlarının keçdiyi şərəfli döyüş yolundan, şəhid ailələrinə, qazilərə göstərilən dövlət qayğısından danışmışdır. Sonra qəhrəman şəhidlərin anası Mailə Allahverdiyeva çıxış edərək filmin ərsəyə gəlməsində əməyi olanlara və tədbirin təşkilatçılarına minnətdarlığını bildirmişdir.

Çıxışlardan sonra film nümayiş etdirilmişdir.

Qeyd edək ki, 20 aprel 2001-ci ildə Ağdamın Çullu kəndində doğulan əkiz qardaşlar bir yerdə böyüyüb, orta məktəbi bir oxuyub, hərbi xidmətə bir yollanıb, Vətən müharibəsində iştirak edərək cəbhənin Füzuli və Xocavənd istiqamətində çiyin-çiyinə vuruşaraq eyni gündə - 2020-ci il oktyabrın 24-də şəhidlik zirvəsinə ucalıblar. Şəhid qardaşlar ölümlərindən sonra Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif ediliblər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Birdəfəlik müavinətin proaktiv qaydada təyinatına başlanıb

**İşğaldan azad edilmiş ərazilərimizdə məskunlaşaraq işləyən mütəxəssislərin ilkin maddi-məişət şəraitinin dəstəklənməsi məqsədilə onlara birdəfəlik müavinətin (600 manat) təyin olunmasına başlanıb.**

Birdəfəlik müavinət elektron sistem üzərindən proaktv qaydada, yəni həmin işçilərin müraciət etməsinə və sənəd təqdim olunmasına ehtiyac olmadan həyata keçirilir.

Qeyd olunan birdəfəlik müavinətin təyinatı Prezident İlham Əliyev tərəfindən imzalanmış qanunvericilik aktları ilə həmin ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislər üçün nəzərdə tutulan sosial dəstək tədbirlərindən biridir.

Əmək Məcəlləsinə əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan, azad edilmiş ərazilərimizdə əmək müqaviləsi əsasında işləyən işçilər aiddir.

İşğaldan azad edilmiş ərazilərimizdə məskunlaşaraq işləyən mütəxəssislərə birdəfəlik müavinət verilməsi ilə yanaşı, onların aylıq vəzifə maaşlarına əlavələr hesablanması və onlara hər il 5 gün əlavə məzuniyyət verilməsi də nəzərdə tutulub.

## Yeni istifadəyə verilən mebel fabrikində əmək yarmarkası keçirilmişdir



**Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilmiş Qazaxdakı "Venzana" Mebel Fabrikində əmək yarmarkası keçirilmişdir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Qazax-Tovuz Regional Məşğulluq filialının və "Saloğlu" mebel istehsalı müəssisəsinin birgə təşkilatçılığı ilə keçirilən yarmarkada adıçəkilən mebel şirkətinin təsisçisi Tacəddin Mustafayev çıxış edərək bildirmişdir ki, hazırda mebel fabrikində 425 nəfər işçi çalışır. "Venzana" Mebel Fabrikinin açılışı ilə əlaqədar birinci növbənin tam fəaliyyət göstərməsi üçün 175, ikinci növbənin təşkili üçün əlavə olaraq 500 nəfər işçiyə ehtiyac var. Dövlət Məşğulluq Agentliyi tərəfindən fabrikdə peşə kurslarının təşkil edilməsi nəzərdə tutulmuşdur. Həmin kursları bitirən şəxslərə sertifikatlar təqdim ediləcək və onlar "Venzana" Mebel Fabrikində müvafiq işlə təmin olunacaqlar.

Bütün gün davam edən əmək yarmarkasında "Venzana" Mebel Fabrikində işləmək istəyən 288 nəfərin müraciəti qəbul edilmişdir. Müraciət edən vətəndaşlara "Venzana" Mebel Fabrikində işləmək üçün planlama mütəxəssisi, konstruktor, xammal və material anbarının işçisi, hazır məhsul anbarının işçisi, biçici, dərzi, dərzi usta köməkçisi, karkas sexində usta köməkçisi, döşəmə sexində operator və digər iş yerləri təklif olunmuşdur.

## Tovuzda yubiley yubileyə qarışdı

**Tovuzda rayon icra hakimiyyətinin, Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin, Azərbaycan Aşıqlar Birliyinin və Tovuz Xeyriyyə Cəmiyyətinin təşkilatçılığı ilə aşıq sənətinin görkəmli nümayəndələri aşıq Əkbər Cəfərovun 90 və aşıq Əlixan Niftəliyevin 80 illiyinə həsr olunmuş "Sənətə bağlı ömür" adlı yubiley tədbiri keçirilmişdir.**





Tədbiri giriş sözü ilə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq qeyd etmişdir ki, milli mədəniyyətimizin incisi olan aşıq sənətinə Ulu Öndər Heydər Əliyev yüksək dəyər verirdi: "Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunmasına, o cümlədən aşıq sənətinə xüsusi diqqət yetirirdi. Bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da aşıq sənətinə, onu yaşadanlara hörmətlə yanaşırlar. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğıkeşliyi sayəsində Azərbaycanın aşıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Prezident İlham Əliyev isə 2019-cu ildə Tovuzda aşıq sənəti muzeyinin tikintisi barədə sərəncam imzalamış və 2020-ci ildə rayona səfəri çərçivəsində ölkəmizdə ilk və yeganə olan bu muzeyin açılışında iştirak etmişdir. Muzeyin istifadəyə verilməsi ölkəmizdə əsl mədəniyyət hadisəsi olmaqla yanaşı, aşıq sənətinin qorunması, təbliği və inkişafına dövlət qayğısının əyani sübutu olmuşdur".

Yubiley tədbirində o da vurğulanmışdır ki, Azərbaycanda aşıq sənətinin qorunmasında və inkişafında çoxsaylı şəxsiyyətlər olmuşdur. Aşıq Əkbər Cəfərov və Əlixan Niftəliyev də bu sənətin görkəmli nümayəndələrindəndirlər. Aşıq Əkbərin yaratmış olduğu məktəbdən yüzlərlə gənc faydalanmışdır. İndi də onun yolu ilə gedənlərin, onun sənətinə tapınanların sayı az deyil. Onlardan biri də bu günlərdə 80 yaşı tamam olan aşıq Əlixan Niftəliyevdir.

Daha sonra Milli Məclisin deputatı Arzu Nağıyev, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, Tovuz Xeyriyyə Cəmiyyətinin üzvü Vidadi Əhmədov, Aşıq Urfan Əli saz-söz sənətkarları Əkbər Cəfərovun və Əlixan Niftəliyevin Azərbaycan aşıq sənətinə verdiyi töhfələrdən danışmışlar.

Tədbirdə rəssam Fərman Hüseynov aşıq Əkbər Cəfərovun portretini ailəsinə təqdim etmişdir. Sonra hər iki aşığın ailə üzvləri çıxış edərək aşıq sənətinə, xalq yaradıcılığına yüksək qiymət verən hər kəsə minnətdarlıqlarını bildirmişlər.

Yubiley tədbiri rayon aşıqlarının çıxışları ilə yekunlaşmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəhid Bəxtiyar Muradovun doğum günü bir daha anıldı

**Şəhid Bəxtiyar Muradovun doğum günü münasibətilə anım tədbiri keçirilib.**



Əvvəlcə Sumqayıt Şəhidlər xiyabanında şəhidin məzarı ziyarət olunub, məzarı önünə tər güllər düzülüb, onun və Vətən uğrunda canından keçən digər şəhidlərin ruhuna dualar oxunub.

Anım tədbirində şəhid Bəxtiyar Muradovun döyüş yolundan söz açılıb, vətənpərvərliyindən bəhs olunub. Bildirilib ki, Bəxtiyar Muradov 24 avqust 2003-cü ildə Sumqayıt şəhərində anadan olub. 2007-2018-ci illərdə Sumqayıt şəhər 29 nömrəli tam orta məktəbdə orta təhsil alıb, 2021-ci ildə hərbi xidmətə çağırılıb.

Bəxtiyar Muradov 2022-ci il sentyabrın 13-də Kəlbəcər istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Kəhriz bərpa edilmişdir

**Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan nümayəndəliyi tərəfindən "Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı" layihəsi həyata keçirilir.**



Həmin layihə çərçivəsində Şəmkir rayonunun İrmaşlı kəndinin ərazisində yerləşən kəhriz bərpa edilərək istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə diqqətə çatdırılmışdır ki, müasir texnologiyalar tətbiq olunmaqla bərpa olunan kəhriz saniyədə 27 litr su verəcək. Bununla 75 ailə içməli və suvarma suyu ilə təmin olunacaq.

*"Azərbaycan"*

# "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Yevlax rayonunda vətəndaşları qəbul edib



Cənab Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov avqustun 30-u saat 10:00-da Yevlaxda Yevlax və Ucar rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutub.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Yevlax rayonundakı abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Arxayınlaşmaq olmaz

Bu gün "Qarabağ" Avroliqanın pley-off mərhələsinin cavab matçında Sloveniya "Olimpiya"sını qəbul edəcək

**UEFA Avropa Liqası**
**Pley-off, cavab oyunu**
**20:00 "Qarabağ" (Azərbaycan) - "Olimpiya" (Sloveniya)**
***Baş hakim:*** **Alexandro Ernandes (İspaniya)**
***Tofiq Bəhramov adına Respublika Stadionu***
**İlk oyun 2:0**



**Bu gün Ağdamın "Qarabağ" komandası UEFA Avropa Liqasının pley-off mərhələsinin cavab matçında Bakıda Sloveniyanın "Olimpiya" klubunu qəbul edəcək. İlk oyunda Lyublyanada qazanılan 2:0 hesablı qələbə komandamızı arxayınlaşdırmamalıdır. Çünki oyuna köklənmədə yaranan boşluq komandanı çox ciddi problemlə üz-üzə qoya bilər.**

Düzdür, səfərdəki oyunda Ağdam klubu rəqibini çox düzgün təhlil edərək matçın ilk dəqiqələrindən meydançanın sloveniyalılara aid hissəsində tətbiq etdiyi pressinqlə meydan sahiblərinin oyun qurmasına imkan vermədi. Qısa ötürmələrlə oyunu meydançanın rəqibə aid olan hissəsində keçirən futbolçularımız itirilən hər topdan sonra, demək olar ki, Sloveniya təmsilçisinə, boş zona buraxmadılar. Ağdam klubu müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə çox diqqətli oldu. İlk 20 dəqiqədə rəqibi topsuz qoyan komandamız qarşı tərəfdə təhlükəli epizodlar yaşadı.

Bir daha xatırladaq ki, "Olimpiya" oyun planı olaraq futbolçularının bütün zonalarda bir-birinə sıx oyununu təşkil edən komandadır. Ağdam klubunun rəqibi matçın gedişinə uyğun olaraq 4-3-3, bəzən də 4-4-2 oyun formatına üstünlük verir. Topu oyuna daxil edərkən mərkəz hücumçuları çox önəmli rol oynayırlar. Belə ki, avstriyalı hücumçu Raul Floruç müdafiənin mərkəzindən edilən ötürmədən sonra irəli çıxaraq ani toxunuşla cinah oyunçularına boş zonalar yaradır. Xüsusilə portuqaliyalı Ruy Pedru ilə tandemi yaxşı alınır. Cinahlardan hücumlara çox aktiv qoşulurlar. Sürətli oyunçu profillərinə sahibdirlər.

Topun olduğu zonaya 3-4 oyunçu ilə birdən basqı etməyə çalışırlar. Rəqibə qalib gəlmək üçün ön zonaya pressinq tətbiq etmək daha faydalı olardı. Xüsusilə hücuma qoşularkən "Qarabağ" geri dönən toplara da zamanında sahib olmalıdır. Lyublyanadakı ilk oyunda komandamız bunu yaxşı bacardı.

Meydan sahibləri heyətdəki texnikalı futbolçuların da potensialından yararlanaraq, təkbətək mübarizələrdə üstün ola bilirlər. Standart vəziyyətlərdə də yaxşı təsir bağışlayırlar.

Sloveniya təmsilçisinin cinah oyunlarının qarşısını almaq üçün ilk matçdakı kimi onları mərkəzdə qısa ötürmələrlə yormaq lazımdır. Çünki əvvəlki qarşılaşmaları izlədikdə topa daha çox sahib olan komandalara qarşı ciddi problemlər yaşadıqları görünür.

Belə qənaətə gəlmək olar ki, bu matçda da Ağdam təmsilçisi topa daha çox sahib olaraq qısa ötürmələrə üstünlük verəcək. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi Cicanın topsuz oyunlarda rəqib müdafiəçiləri üzərinə çəkməsi "Olimpiya"nın arxa xəttində balansın pozulmasına səbəb ola bilər. Bu fonda isə Benzia, Leandro Andrade və Yankoviç üçün boş zonalar yaranar ki, uzaqdan vurulan zərbələr nəticəsində qol vurmaq imkanına sahib olarıq.

Bir sözlə, səfərdə qazanılan qələbə Ağdam klubunun qrup mərhələsinə vəsiqə əldə etməsi üçün çox yaxşı nəticədir. Lakin unutmamaq lazımdır ki, qarşıda hələ daha bir 90 dəqiqə var. Odur ki, vurduğun qol olsun, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Afrikada fransız imperializminə qarşı nifrət güclənir

Son vaxtlar Qərbi Afrikada və Saheldə baş verən bütün inqilabi prosesləri alovlandıran əsas amillərdən biri fransız imperializminə qarşı güclü nifrətdir.





İkinci Dünya müharibəsindən sonra siyasi, təhlükəsizlik və iqtisadi əlaqələr vasitəsilə Paris, Fransa imperializminin maraqlarına xidmət etmək və zəifləyən imperiya nüfuzunun son qalasını qorumaq üçün fransızdilli Afrikanı hər vasitə ilə əlində saxlayırdı.

2008-ci ilin martında Fransanın keçmiş prezidenti Jak Şirak bəyan etmişdi: "Afrika olmasa, Fransa üçüncü dünya ölkələri sırasına düşəcək". Şirakın sələfi Fransua Mitteran isə demişdi: "Afrika olmasa, 21-ci əsrdə Fransanın tarixi olmayacaq".

Afrika üçün belə bir proseslərin nəticələri Fransa iqtisadiyyatından kölə asılılığı, Fransa ordusundan asılılıq və Fransanın özəl biznesinin bölgəni talamaq və sərvətlərini mənimsəmək üçün açıq qapı siyasəti idi.

Onilliklər ərzində Qərbi və Mərkəzi Afrikanın on dörd ölkəsinin milli ehtiyatları, mahiyyətcə, müstəmləkəçi pul razılaşmalarına uyğun olaraq Fransanın mərkəzi bankında saxlanılırdı. Bunlar Benin, Burkina Faso, Fil Dişi Sahili, Mali, Niger, Seneqal, Toqo, Kamerun, Mərkəzi Afrika Respublikası, Qvineya-Bisau, Ekvatorial Qvineya, Çad, Konqo-Brazzavil və Qabondur.

2020-ci ilin may ayında Fransa Milli Assambleyası ölkələrin ehtiyatlarını Fransa Bankına depozit qoyması tələbini təsdiq edən qanun qəbul etdi. Praktikada isə köhnə əlaqə davam edir, afrikalı tənqidçilər islahatları realdan daha çox "simvolik" adlandırırdılar.

"The Economist" nəşrinin yazdığına əsasən, Fransanın xəzinəsində hazırda Afrika ölkələrinin təxminən 500 milyard dolları saxlanılır. Üstəlik, Afrika ölkələrinin bu pula çıxışı yoxdur. Faktiki olaraq, Fransa keçmiş müstəmləkələrini öz valyuta ehtiyatlarının 65 faizinə qədərini Fransa Mərkəzi Bankına qoymağa, üstəlik daha 20 faizini maliyyə öhdəliklərinə sərf etməyə məcbur edib və beləliklə, onlara öz pullarının yalnız 15 faizinə çıxış imkanı yaradıb. Əgər onların daha çox pula ehtiyacı olarsa, Fransadan öz pullarını kommersiya faizləri ilə borc almalıdırlar.

Paris keçmiş müstəmləkələrinin ərazisində tapılan istənilən təbii ehtiyatları almaq üçün birincilik hüququna malikdir. Afrika ölkələri Fransanın maraqlarına və dövlət satınalma şirkətlərinə üstünlük verirlər.

Fransa Afrika silahlı qüvvələrinə təlim keçmək, maraqlarını qorumaq üçün Afrika ölkələrinə qoşun yerləşdirmək və müdaxilə etmək üçün müstəsna hüququnu özündə saxlayır. Bu ölkələr müharibə və ya böhran vəziyyətlərində yalnız Fransa ilə müttəfiq olmağa məcbur edilir.

Son 70 ildə Fransa iqtisadi tədbirlər, gizli əməliyyatlar və onlarla hərbi müdaxilə ilə Afrikadakı maraqlarını qoruyub. Fransa son illərdə kəşfiyyat və müşahidə əməliyyatları ilə və saysız-hesabsız yarıdaimi hərbi kampaniyalarla yanaşı, Saharanın çənubundakı Afrika ölkələrinə dəfələrlə müdaxilə edib.

Fransızlar fransızdilli Afrikanı əsarət altına almaqda, talan etməkdə, onların qızıllarını, almazlarını və digər təbii sərvətlərini oğurlamaqda ön sıralarda idilər. Bir sözlə, Fransa Afrikanı qurudub.

Bu, bölgənin parazitik və boğucu formada talan edilməsidir. Təbii ki, bu, Parisin siyasi və silahlı müdaxiləsi səbəbindən ona qarşı yığılmış narazılığı xeyli dərəcədə alovlandırdı.

Bütün bunlar sonda partlayıcı vəziyyət yaradıb. Fransızların bu qədər nifrətə layiq olması təəccüblü deyil. İndi Fransa rəsmiləri Afrikadakı keçmiş Fransa koloniyalarına səfər edərkən etirazlarla qarşılanırlar.

Qərbi Afrikada radikallaşma prosesi 2010-2015-ci illər ərəb inqilablarından sonra keyfiyyətcə dönüş aldı. Nigeriyada Misir inqilabından ilhamlanaraq hərəkat baş qaldırdı. 2012-ci ildə Seneqalda antihökumət, 2014-cü ildə Burkina Fasoda inqilabi hərəkat yarandı. Sonra Toqo, Qabon və Çadda inqilabi hərəkatlar baş verdi...

Beləliklə, fransız imperializmi Qərbi Afrika üzərində nəzarəti itirir. Bu yaxınlarda Nigerdə baş vermiş çevriliş Qərb imperializminə daha bir zərbədir. Niger ABŞ və Fransanın Afrikadakı strategiyasında əsas oyunçu olub. Prezident Məhəmməd Bazum Qərbin əsas müttəfiqi idi. Fransa Nigerdə təxminən 1500 hərbçi yerləşdirib və onların əksəriyyəti Malidən alçaldıcı şəkildə qovulduqdan sonra oraya köçürülüb.

Niger Sahel bölgəsini silkələyən sarsıntılar zəncirinin son halqası idi. Bütün bu inqilablar bilavasitə Fransa və Qərb imperializminin maraqları ilə ziddiyyət təşkil edir. Burkina Faso bütün fransız qoşunlarının çıxarılmasını tələb edib. Mali ötən il 2400 fransız əsgərini ölkədən çıxarıb. Bu proses dünya münasibətlərində dəyişikliyi ifadə edir və kapitalizm böhranında növbəti strukturlaşma və sarsıntıların yeni dövrünü açır.

Onu da xatırlamaq lazımdır ki, Afrika əhalisinin 60 faizindən çoxu 25 yaşdan aşağıdır. Bu onu dünyanın ən gənc qitəsinə çevirir.

Hazırda müşahidə olunanlar radikallaşmanın dərinləşməsi prosesidir və belə gedişlə bu proses bütün Afrika qitəsini bürüyəcək.

Son məlumata görə, dünən daha bir Afrika ölkəsində - Qabonda hərbi çevriliş baş verib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 sentyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi **RAHİB VAQİF OĞLU SALMANOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi **RAHİB VAQİF OĞLU SALMANOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**
**Tiraj 5458**
**Sifariş 2177**
**Qiyməti 40 qəpik**